# AZƏRBAYCAN DİLİ

*DÖVLƏT DİLİ*



**3**

*DƏRSLİK*





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** *Üzeyir Hacıbəylinin,*
**sözləri** *Əhməd Cavadındır.*

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

İradə Əfəndiyeva
Məlahət Ələsgərova

# AZƏRBAYCAN DİLİ 3

Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə dərslik

Bu nəşrlə bağlı irad və təkliflərinizi
*yndm21@day.az* və *dərslik@edu.gov.az*
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

XXI
YNE

# Mündəricat

## Doğma məktəb

1.Bilik günü............................................................................ 6
2.Uşaqların sevinci .................................................................... 9
3.Azərbaycan dili dərsində ...................................................... 11
4.“İlk dərs” şeiri ...........................................................................14

## Milli dəyərlərimiz

5.Uşaqların sevimlisi .....................................................................17
6.İçərişəhər ............................................................................. 19
7.Milli musiqimiz ...........................................................................22
8.Bizim qəhrəmanlarımız ...............................................................25

## Azərbaycan -yurdum mənim

9.“Azərbaycanım mənim” şeiri .......................................................27
10.Bakı ..................................................................................... 30
11.Xəzər dənizi ..................................................................... 32
12.Göygöl ...........................................................................................35
13.Dağlar gözəli Şəki .......................................................................37

## Təbiəti qoruyaq

14.Təbiət ................................................................................. 40
15.Günəş ................................................................................. 42
16.Torpaq................................................................................. 45
17.Su həyatdır...................................................................................47
18.Hava ............................................................................................51

## Nağıllar aləminə səyahət

19.Hacıleylək və sərçə ....................................................................54
20.Ləpirlər ............................................................................... 56
21.Peşmançılıq ..................................................................................60
22.Yeddi nar çubuğu .........................................................................63

## Yaxşı insan olaq


23. Səbət əhvalatı........................................................................................ 66
24. Pis adət ................................................................................................. 69
25. Balaca ................................................................................................... 72
26. Şir və siçan ...........................................................................................76
27. Ağacların bəhsi ...................................................................................... 80


## Gəlin dostluq edək


28. Cırtdanın nağılı ...................................................................................... 84
29. Ana-bala məhəbbəti ............................................................................... 87
30. Şir və tülkü ............................................................................................ 90
31. Qızılgülün nağılı .................................................................................... 93
32. Bülbülün nağılı ...................................................................................... 97

İzahlı lüğət ..................................................................................................... 100



# DOĞMA MƏKTƏB

Əziz uşaqlar, bu gündən siz artıq III sinifdə oxuyacaqsınız. Əlinizdəki dərslik sizin ən yaxın dostunuz olacaq. Bu dərslikdə mən sizi Vətənimiz, onun gözəl təbiəti, qəhrəman insanları, milli dəyərləri, doğma dilimizin gözəlliyi ilə tanış edəcəyəm. Sizə uğurlar olsun!

## 1. BİLİK GÜNÜ



Bu gün sentyabrın 15-dir. Ölkəmizdə bu günü Bilik Günü kimi qeyd edirlər. Bütün uşaqlar məktəbə tələsirlər. Onların üzündə sevinc hiss olunur. Axı bu gün onlar sevimli müəllimləri, sinif yoldaşları ilə görüşəcəklər. Bəzi uşaqların əlində çiçək dəstələri də var. Hamı bir-birini təbrik edir.

Uşaqlar təzə təmir olunmuş siniflərə toplaşırlar. Müəllim sinfə daxil olur. O, uşaqlarla salamlaşır.

Müəllim uşaqlara vətənimiz haqqında danışır. O deyir:

Azərbaycan tarixən Odlar yurdu adlanıb. Azərbaycan qədim və zəngin bir ölkədir. Onun paytaxtı Bakı şəhəri Xəzərin sahilində yerləşir. Azərbaycan gündən-günə gözəlləşir və inkişaf edir.

**1** Mətni oxuyun. Məzmununu öz sözlərinizlə danışmağa çalışın.

**2** 

Oxuduğunuz bu mətndə hansı suala cavab tapmadınız?

A) Ölkəmizdə Bilik Gününü nə vaxt qeyd edirlər?
B) Uşaqlar məktəbə nə üçün tələsirlər?
C) Uşaqlar çiçək dəstələrini hara qoydular?



Dostlar, bu sualları öyrənin, onlar həmişə sizə kömək edəcək.

| | |
|---|---|
| kim? | kimə? |
| nə? | nəyə? |
| nə vaxt? | nə edir? |
| nə üçün? | hara? |

**3** Sualların yerinə elə sözlər qoyun ki, cümlə alınsın:

kim? haraya? nə edir?

kim? haraya? nə üçün? nə edir?

**4** Cümlələri adi və sual intonasiyası ilə oxuyun.

| | |
|---|---|
| Bura məktəbdir. | Bura məktəbdir? |
| Bura sinifdir. | Bura sinifdir? |
| Bu, müəllimdir. | Bu, müəllimdir? |
| Bu, Əlidir. | Bu, Əlidir? |

**5** Atalar sözünü oxuyun. Mənasını izah edin.

***Atalar sözü***
*Elm ağılın çırağıdır.*

**6** Çalışma 5-də verilmiş atalar sözünü yadınızda saxlayıb dəftərinizə yazın. Sonra yazdıqlarınızı kitabdan yoxlayın.

**7** 

Deyə bilərsinizmi, burada neçə cümlə **"gizlənib"**? Cümlələri dəftərinizə köçürün.

Məktəb bizim doğma evimizdir dərslərin başlandığı günü səbirsizliklə gözləyirdik sinif yoldaşlarımızı görəndə çox sevindik

**8** Şəkillərə əsasən suallara yazılı cavab verin:

1. Uşaqlar nə edirlər? Uşaqlar ... 
2. Burada nə var? Burada ... 
3. Bu kimdir? Bu, ... 
4. Bu nədir? Bu, ... 
5. Bura haradır? Bura ... 

**9** Cümlələri dəftərinizə köçürün. Məktəb ləvazimatlarının adlarını bildirən sözlərin altından xətt çəkin.

Bura sinifdir. Sinifdə çoxlu parta var. Partaların üstündə kitab, dəftər, qələm, şagird gündəliyi var. Bu, müəllim stoludur. Stolun üstündə sinif jurnalı, dərslik var. Divardan lövhə asılıb. Lövhədə yazmaq üçün tabaşir qoyulub.



!

**Yadda saxlayın!**

Zəhmət olmasa,
Təşəkkür edirəm – nəzakətli sözlərdir.

**10** Verilən sözlərdən sxemlər üzrə iki cümlə düzəldib, dəftərinizə köçürün.

məktəbə

şagirdlər

müəllim

onlar




gəlirlər

çiçək dəstələri

verirlər

Cümlələrin sxemləri:

kim? haraya? nə edir?

kim? kimə? nə? nə edir?

**11** Nöqtələrin yerinə hərfləri qoymaqla cümlələri köçürün.

Biz Bili... Günün... qeyd etdi...
Bütün uşa...lar dərsl...rin başlanmasını səbirsizli...lə gözl...yirdilər.



?

Uşaqlar, cümlələrdə buraxılmış hərflərə fikir verdinizmi?
Səslərin tələffüzündəki fərqləri izah edə bilərsinizmi?

ü ə...

q k...

# 2. UŞAQLARIN SEVİNCİ



Dərs ilinin ilk günü uşaqlar sevinc içərisində idilər. Məktəbimiz yenicə təmirdən çıxmışdı. Prezidentimiz İlham Əliyev də bizə qonaq gəlmişdi. Biz Bilik Gününü təntənəli şəkildə qeyd edirdik.

Mən bu tədbir haqqında evdə danışanda atam dedi:

– Mən də məktəbə getdiyim günləri xatırlayıram.

Bilik günü ümummilli liderimiz Heydər Əliyev də bizim məktəbə gəlmişdi. O, uşaqlarla mehriban görüşür, söhbət edir, məsləhətlər verirdi.

Unudulmaz rəhbərimiz üzünü bizə tutub demişdi:

– Əziz balalar, yaxşı oxuyun. Vətənimiz üçün çalışın. Əgər siz yaxşı oxusanız, hamı yaxşı işləsə, dövlətimiz daha da möhkəmlənər, varlanar.

Gələcək sizindir, uşaqlar! Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Tutduğumuz yol düzgün yoldur.

Bu sözlər indi də mənim yadımdadır.

Mən atamın sözlərini dinlədikcə qürur hissi keçirirdim.

*“Keyfiyyətli təhsil xalqımızın gələcəyidir”*

*Heydər Əliyev*

**1** Ulu öndərimiz bu sözləri ilə balacalara nəyi tövsiyə edir?

A) gələcək bizimdir. B) təhsil almaq vacibdir.

C) xalqımız təhsil almağı sevir.

**2** 

Mətndə hansı bayramdan danışılır?

A) Novruz bayramı B) Yeni il şənliyi

C) Bilik Günü

**3** Mətndə işlənmiş hansı cümlələrlə unudulmaz rəhbərimiz uşaqlara nəsihət edir? Həmin cümlələri seçib yazın.

**4** Cümləni hansı sözlə bitirmək olar?

Biz Bilik Gününü təntənəli şəkildə ...

a) apardıq. b) qeyd etdik. c) saxladıq.

**5**  Uşaqlar, mən inanıram ki, siz aşağıdakı cümlələri təhsil aldığınız dilə tərcümə edə biləcəksiniz.

qonaq gəldi – ...
qeyd etdik – ...
uşaqlarla söhbət edir – ...
məsləhətlər verirdi – ...
yaxşı oxuyun – ...
gələcəyə inanıram – ...

**6** Nöqtələrin yerinə uyğun gələn sözləri əlavə edib dəftərinizə köçürün.

Məktəbimizə ... gəlmişdilər. Uşaqlar ... hazırlaşırlar. Tədbirimiz ... keçdi. ... tədbirdən razı qaldılar.

köməkçi sözlər: *maraqlı, qonaqlar, gələnlər, bayrama*



Uşaqlar, siz artıq əlifbadakı hərfləri tanıyırsınız. Bilirsiniz ki, sözlər səslərin birləşməsindən əmələ gəlir.

*Məsələn:* "məktəb" – **[m], [ə], [x], [t], [ə], [p].**

Səslər yazıda hərflərlə işarə edilir. Səsləri deyir, hərfləri yazırıq.

Səslər iki yerə bölünür: ***saitlər***
***samitlər***

Sait səslər ağız boşluğunda sərbəst tələffüz edilir.

9 sait səs vardır: **a, ı, o, u, e, ə, i, ö, ü.**

**7** **m...kt...b, s...n...f, ...ş...q, n...s...h...t** sözlərində nöqtələrin yerinə uyğun gələn səsləri əlavə edin və oxuyun. (**a, ə, i, u**)

**8** Köməkçidən istifadə edərək nöqtələrin yerinə uyğun gələn sözləri qoymaqla lətifəni oxuya bilərsiniz.

Həyat bilgisi dərsində ... Şirinbaladan soruşdu:
– Yer ... Ay yaxındır, yoxsa Günəş?
Şirinbala bir neçə ... gözünü döyəndən sonra dedi:
– Əlbəttə, Günəş.
– Bunu ... izah edə bilərsən?
– Çox ... . Günəşin istisi bizi ..., Ayınkı isə yox.

köməkçi sözlər: *saniyə, müəllim, necə, yandırır, planetinə, asan.*

**9** Lətifədən sait səsləri yanaşı işlənmiş sözləri seçib yazın.

**10** **“Gülməli”** sözündə neçə sait səs var?

a) 3 b) 2 c) 4

**11** **“Təəccüb”** sözündə neçə samit səs var?

a) 3 b) 2 c) 4



Uşaqlar, Azərbaycan dilini bilmədən, mətnlərin mənasını başa düşmək olarmı?

# 3. AZƏRBAYCAN DİLİ DƏRSİNDƏ



Dərsdə müəllim uşaqlara Azərbaycan dili haqqında danışırdı:

– Uşaqlar, hər bir xalqın öz dili var. Dil yaşadıqca xalq da yaşayır. Bizim ana dilimiz Azərbaycan dilidir. Dilimizin söz ehtiyatı çox zəngindir.

Azərbaycan dili bizim həm də dövlət dilimizdir. Biz öz dilimizi sevməli, öyrənməli və qorumalıyıq. Bu, hər bir azərbaycanlının müqəddəs borcudur.

Hər bir Azərbaycan vətəndaşı dövlət dilini öyrənməli və ona hörmətlə yanaşmalıdır.



Oxuduğunuz bu mətndə yeni nə öyrəndiniz? Bu barədə qısaca danışın.

**1** Verilən suala cavab tapmağa çalışın. Cavabı dəftərinizə yazın.

Müəllim uşaqlara nə haqqında danışırdı?
Hər bir Azərbaycan vətəndaşı nəyə hörmətlə yanaşmalıdır?

Doğrudan da, **dilin** köməyi ilə biz bir çox maraqlı məlumatlar əldə edirik. Bəs Azərbaycan dilini bilmək daha nə üçün lazımdır?

**2** Mətnə hansı sualı vermək olmaz?

A) Dili kim yaşadır?
B) Azərbaycan dövlətinin dil haqqında hansı qanunları var?
C) Azərbaycan vətəndaşının müqəddəs borcu nədir?

**3** Atalar sözünü oxuyun və yadda saxlayın!

***Atalar sözü***
*Dildən acı, dildən də şirin şey yoxdur.*



Bu atalar sözünü necə başa düşürsünüz? Onu tərcümə edin.
Əgər dili bilməsəydiniz, atalar sözünün mənasını izah edə bilərdinizmi?
Dili bilmək bizə daha nə zaman lazım ola bilər?

**4** Şəkillərə baxıb izah edin: insanlar dildən nə zaman istifadə edirlər? Özünüzdən əlavələr edə bilərsiniz.







**5** Deyə bilərsinizmi ki, dili bilmək insanlara daha harada kömək edir?

a) idman edəndə b) şəkil çəkəndə c) kitab oxuyanda

**Yadda saxlayın !**
Dilin köməyilə insanlar ətraf aləm haqqında çoxlu yeni və maraqlı məlumatlar öyrənir, bu dildə düşünür, ünsiyyət qurur, fikirlərini bölüşürlər.

**6** Atalar sözünü oxuyun. Tərcümə edin. Mənasını izah etməyə çalışın. Onu yadınızda saxlayıb dəftərinizə köçürün.

***Atalar sözü***
*Bilməmək eyib deyil, soruşmamaq eyibdir.*



Mətni daha yaxşı yadda saxlamaq üçün aşağıdakı qaydalara riayət etmək lazımdır.

Cümləni oxuyun və təkrar edin.
Cümlənin mənasını başa düşməyə çalışın.
Cümləni yadınızda saxlayın və kitaba baxmadan dəftərə yazın.
Öz yazdığınızı kitabdakı yazı ilə müqayisə edin.

**7** Mətni verilmiş qaydalara əsasən oxuyun.

Azərbaycan dili artıq bizə tanışdır. Biz bu dildə danışmağı və yazmağı bacarırıq. Vətənimizdə hamı Azərbaycan dilində danışa bilir. Ancaq Azərbaycanda başqa dillərdə də danışan insanlar var. Danışdıqları dil onlar üçün doğmadır. Azərbaycan dilini isə hamı bilməlidir. Axı Azərbaycan dili bizim **dövlət dilimizdir**.

**8** Mətndə hansı söz işlənməyib?

a) dövlət b) ölkə c) vətən

**9** Cümlədəki sözləri elə dəyişin ki, mətn alınsın.

Üçüncü, sinif, mən, oxu. Biz, olur, hər gün, dərs, beş. Maraqlı, keç, dərslər. Oxu, yaz, tərcümə et, biz, dərsdə. Biz, həvəslə, gedir, məktəb.



Alındı? Sizə çətin olmadı ki?

Uşaqlar, Azərbaycan dilində yaxşı danışmaq üçün sözləri düzgün əlaqələndirmək lazımdır.

**10** İndi isə şahid olduğunuz maraqlı bir hadisəni Azərbaycan dilində danışın. Dostlarınız sizi başa düşdülər? Danışdığınız hadisəni dəftərinizə yazın.

**Yadda saxlayın !**

Hər kəs elə danışmalıdır ki, ona qulaq asan üçün maraqlı olsun. Azərbaycan dilində danışanda dilimizdə işlənən ən gözəl sözlərdən istifadə etməyə çalışın.



**11** Nəzakətli sözləri seçib yazın.

– Zəhmət olmasa. O tərəfə çəkil.
– Əgər mümkünsə. Heç lazım deyil.
– Mənə mane olma. Təşəkkür edirəm.
– Böyük məmnuniyyətlə.

# 4. İLK DƏRS



Bu gün yeni dərs ili
Başlanır... Səhər-səhər
Məktəblərə yollanır
Al yanaqlı körpələr.

* *

O dalında çantası
Gedən uşağa bax bir.
Əlində bir dəstə gül
O, məktəbə tələsir.

* *

Sevinc sığışmır onun
Bugünkü hər anına.
Bu gün ayaq basacaq
Məktəb pilləkəninə.

*Bəxtiyar Vahabzadə*



**1** Şeiri əzbərləyin. Aşağıdakı suallardan hansına şeirdə cavab yoxdur?

A) Uşaq hara tələsir?
B) Məktəbli uşağı kim qarşılayır?
C) Uşağın əhvalı necədir?

**2** Atalar sözünün mənasını izah edin. Elm, bilik haqqında başqa atalar sözləri deyə bilərsinizmi?

***Atalar sözləri***

*Savadsız adam kor kimidir.*

**3** Əvvəl **kim?**, sonra **nə?** sualına cavab verən sözləri seçib yazın. Özünüzdən əlavələr edə bilərsiniz.

qələm, nənə, soğan, xala, bibi, ağac, quş, toyuq, dayı, ana, tülkü, fincan, ata, qohum, qız, xalça, pərdə, masa, uşaq, dost

Azərbaycan dilində heyvanlar, quşlar *nə?* sualına cavab verir.
*Məsələn:* at (nə?), sərçə (nə?)



**4** Mətni təhsil aldığınız dilə tərcümə edib yazın.

Bizim məktəb böyükdir. O şəhərin mərkəzində yerləşir. Məktəbin binası dördmərtəbəlidir. Məktəbdə çox uşaq təhsil alır.

**5** Mətni oxuyun. Qısa məzmununu danışmağa çalışın.

Üçüncülər sinif nümayəndəsi seçirdilər. Müəllim dedi:

– Uşaqlar, siz əlaçı, intizamlı yoldaşlarınızı yaxşı tanıyırsınız. Elə uşağı sinif nümayəndəsi seçin ki, hamıya nümunə olsun.

Əlaçı şagird Aybəniz dedi:

– Təranə sinfimizdə həm əlaçı, həm də intizamlıdır, onu seçək.

Habil tez dedi:

– Təranə musiqi dərsinə gedir, onun vaxtı olmayacaq.

– Onda Tünzalə olsun, – deyə Aybəniz söylədi.

Habil yenə dilləndi:

– Tünzalənin də riyaziyyatdan üçü var.

Onda müəllim dedi:

– Azadı seçin, o, ağıllı, intizamlıdır.

– Eh, o da tez-tez xəstələnir, – deyə Habil yenə sözə qarışdı.

Aybəniz daha dözə bilməyib dedi:

– Habil, yəqin, özün sinif nümayəndəsi olmaq istəyirsən?

Müəllim sözə qarışdı:

– Habil, əgər intizamlı olub dərslərini yaxşı oxusaydın, yoldaşların sənin də adını çəkərdilər.

Habil utanıb başını aşağı saldı.

**6** Mətni necə adlandırmaq olar?

A) Habilin sinif nümayəndəsi seçilməsi
B) Uşaqların arzusu
C) Habilin istəyi

**7** Hansı düzgündür?

$\frac{p}{b}$ işik, $\frac{b}{p}$ işirmək, $\frac{d}{t}$ ükan, $\frac{t}{d}$ikan, $\frac{b}{p}$ ıçaq, qa $\frac{ç}{ş}$ dı, tə $\frac{n}{m}$ bəl

**8** Atalar sözlərindəki samit səsləri yerinə qoyun və dəftərinizə köçürün.

***Atalar sözləri***

*Söz qılın...dan itidir.*
*Öz...əyə quyu qazan özü düşər.*
*...ələm yazanı, qılın... pozmaz.*



? Atalar sözündə seçdiyiniz səslərin tələffüzünə fikir verdinizmi? Onları bir daha səsləndirin.

Elə səslər var ki, onlar tələffüz edildikdə ağızda müxtəlif maneələrlə rastlaşır. Bunlar **samit** səslərdir. Samit səslər 2 cür olur:

***cingiltili:*** [b], [v], [q], [ğ], [d], [j], [z], [y], [g], [c], [l], [m], [n], [r] –
***kar:*** [p], [f′], [k′], [x], [t], [ş], [s], [x′], [k], [ç], –, –, –, –, –[h]

**9** Mətni rollar üzrə oxuyun.

Adil yoldaşının yazısında səhvi görüb dedi:
– Sən düzgün yazmamısan, kənt yox, kənd yazılmalıdır.
Aydın dedi:
– Axı hansı qaydaya görə?
– Həmin sözü elə dəyişdir ki, ondan sonra sait işlənsin.
– Başa düşmürəm.
– Məsələn, həmin sözə "ə" səsini artır.
– Kəndə.
– İndi bu sözdə hansı səsi eşitdin?
– Əlbəttə, "d" səsini.
– Demək, həmişə kənd yazmaq lazımdır.



? Bu mətndən nə öyrəndiniz? Öz sözlərinizlə izah edə bilərsinizmi?

**10** Sözlərdə hansı hərflər yazılmalıdır?

uza $\frac{q}{\text{ğ}}$, bili $\frac{y}{k}$, sava $\frac{d}{t}$, layi $\frac{q}{g}$, övla $\frac{d}{t}$

**11** Cümlələri dəftərinizə köçürün. Təkrar olunan sözlərin altından xətt çəkin, mənasını təhsil aldığınız dildə izah etməyə çalışın.

Nadir qazı yolub qazana saldı. Sonra qazı yandırıb qazanı qazın üstünə qoydu. Qaz bişdi. Nadir qaz ətindən yeyib üstündən su içdi. Sonra həyətə düşüb arx qazdı.

**12** Tapmacanın cavabını tapın.

Basan kimi düyməni,
Göyə qaldırır məni.
Dayananda açılar
Öz-özünə qapılar.

( . . . . )



## MİLLİ DƏYƏRLƏRİMİZ



Dostlar, indi mən sizə elə adamdan söhbət açmaq istəyirəm ki, bütün həyatı boyu sizi düşünmüş və sizin üçün çalışmışdır. Yəqin ki, tanıdınız. Bu, **Abdulla Şaiq Talıbzadədir**.



# 5. UŞAQLARIN SEVİMLİSİ

Abdulla Şaiq uşaqların sevimli yazıçısıdır. O, uşaqlar üçün çoxlu maraqlı əsərlər yazmışdır. Uşaqların həyatından bəhs etmiş və kiçik oxucularına mərdlik, cəsarət, vətənpərvərlik, xalqa məhəbbət kimi müsbət keyfiyyətlər aşılamışdır.

Onun uşaqlar üçün yazdığı çoxlu hekayələri, pyesləri, şeirləri, təmsilləri vardır.

**1** Mətnin məzmununu oxuyun və danışmağa çalışın.

**2** Abdulla Şaiq kimdir?

a) bəstəkar
b) rəssam
c) yazıçı

**3** Mətndə hansı müsbət keyfiyyətlərin adı çəkilib? Həmin keyfiyyətləri dəftərinizə köçürün və bildiklərinizi də əlavə edin.

**4*** Abdulla Şaiqin **“Arı”** şeirini oxuyun və əzbərləməyə çalışın.



Arıyam zəhmətkeşəm,
Bal, mum çəkməkdir peşəm.
Çalışaram doqquz ay,
Hamı məndən alar pay.
Balımdan qoy yesinlər
Mənə “Sağ ol!” desinlər.



*A. Şaiq*

**5** Uşaqlar, bu sözlərdən cümlə qura bilərsinizmi?

1) şeir, şair, çoxlu, uşaqlar, yazmışdır, üçün
2) sevir, biz, onun, şeirlər, çox
3) təmsilləri, kiçik, şeirləri, uşaqlar, vardır, üçün, onun

**6** Tapmacanın cavabını tapın.

Qanadlıdır, quş deyil,
Buynuzludur, qoç deyil.



( . . . . . . . .)

**7** Təmsili oxuyun və məzmununu danışın.

## Arı və kəpənək



Bir arı çəmənlikdə çiçəyə qonub şirə çəkirdi. Həmin çiçəyin o biri budağına da bir kəpənək qonmuşdu. Arı tez-tez kəpənəyin yanından uçub o biri budağa qonurdu. Bundan rahatsız olan kəpənək dedi:

– Ey, o kobud ayaqlarınla mənim yanımdan keçmə! Xallı qanadlarımın bəzəyini pozarsan!

Arı ona cavab vermədi, çiçəkdən-çiçəyə qonmaqda davam etdi. Kəpənək yenə arıya acıqlandı:

– Ey, sənin vızıltın mənə mane olur, başım ağrıyır.

Arı vızıldayaraq cavab verdi:

– Ey, kəpənək! Xallı qanadlarınla öyünmə. Mən çiçəklərdən şirə çəkib bal tuturam. Onu bütün xalq yeyir. Sən isə ancaq özünü tərifləyirsən.

*(A.Şaiq)*

**8** Mətnə əsasən, sözlərdən cümlə qurun.

1) sənin, mənə, mane olur, vızıltın
2) tez-tez, yanından, arı, kəpənəyin, uçub, budağa, o biri, qonurdu

**9** Mətndə hansı sualın cavabı yoxdur?

a) Arı çəmənlikdə nə edirdi?
b) Arı hansı çiçəklərə qonurdu?
c) Kəpənək nə ilə öyünürdü?

**10** Dəftərinizdə bu təmsildəki hadisənin baş verdiyi fəsli təsvir edin.

**11** Nöqtələrin yerinə lazım gələn samit səsləri əlavə edib sözləri dəftərinizə köçürün və cümlələrdə işlətməyə çalışın. **(l, ç, k, q, c)**

xa...ı, çi...ə., ...anad, bö...ək, bəzə... .

**12** **“Qələmlər”** sözündə neçə eyni samit səs var?

a) 2 b) 3 c) 4

**13** Hansı sözləri sağdan sola oxuyanda eyni söz alınır?

a) qaz, qol, ütü
b) səs, tut, dad
c) yun, daş, nar

**14** Hansı sözdəki saitlərin hamısı eynidir?

a) addım b) insan c) isti

**15** Hansı sözdə üç müxtəlif samit yanaşı işlənmişdir?

a) müraciət b) duzlu c) tankçı

***Atalar sözləri***

*Zəhmət çəkməyən bal yeməz.*
*İşləməyən dişləməz.*
*Çalışqan əl nəyə dəysə, qızıl olar.*



Dostlar, indi mən sizə Vətənimizin ən qədim abidəsi olan, milli dəyərlərimizdən sayılan “**İçərişəhər**“dən bəhs edəcəyəm.

# §6. İÇƏRİŞƏHƏR



Paytaxtımız Bakı qədim şəhərdir. Onun çoxlu tarixi abidələri var. Bakının mərkəzində, Xəzər dənizinin sahilində qeyri-adi İçərişəhər yerləşir.

İçərişəhərin qədim tarixi vardır. Bu şəhəri gəzərkən elə bil ki, keçmiş dövrlərə qayıdırsan. Qala divarları ilə əhatə olunmuş İçərişəhərdə Şirvanşahlar sarayı, Qız qalası, məscid, hamam, Bazar meydanı yerləşir. Qoşa Qala qapıları şəhərin qədimliyini bir daha sübut edir.

Şəhərimizə gələn qonaqlar mütləq İçərişəhəri ziyarət edirlər. Axı İçərişəhər Orta Şərqin ən qədim məskənlərindən biridir.
İndi İçərişəhər Dövlət qoruğu elan edilmişdir.

**1** Mətni oxuyun və məzmununu danışmağa çalışın.

**2** Mətnə hansı sualı vermək olmaz?

A) İçərişəhər harada yerləşir?
B) İçərişəhərdə hansı tarixi abidələr var?
C) İçərişəhər neçənci əsrdə salınmışdır?

**3** Siz heç İçərişəhərdə olmuşsunuzmu? Onun haqqında nə bilirsiniz? Bildiklərinizi bizə də danışa bilərsinizmi?

**4** Köməkçidən istifadə etməklə cümlələri tamamlayın.

Uşaqlar şəhərdə ... .
Turistlər şəhərə ... .
Məktəblilər qonaqları şəhərlə ... .
Qonaqlar şəhərimizi ... .
Atam şəhərdən ... .

köməkçi sözlər: *qayıtdı, gəzirlər, tanış etdilər, təriflədilər, tamaşa edirlər*

**5** Suallara cavab verin və cümlələri dəftərinizdə yazın.

| | | |
|---|---|---|
| Şəhərimiz | | gözəldir. |
| İçərişəhər | | maraqlıdır. |
| Abidələrimiz | **necədir?** | böyükdür. |
| Dərsliklərimiz | | tarixidir. |
| Şirvanşahlar sarayı | | qədimdir. |

**6** Nöqtələrin yerinə sait səslər əlavə edib oxuyun.

Q...rdaşım mən... İçər...şəh..rə g...zm...yə ap...rdı. Mən b...rada t...r...xi ab...dəl...r g...rd...m. Elə b...l seh...rli al...mə düşm...şdüm.



Uşaqlar, mən sizi İçərişəhərlə tanış etdim. İçərişəhərdən danışanda **Qız qalası** haqqındakı əfsanə yadıma düşdü. Sizə danışım, siz də valideynlərinizə danışarsınız.

Gənc oğlan hər gün kiçik qayığına minib coşqun Xəzərin qoynunda balıq tutmağa gedirdi. O bilirdi ki, yolunu gözləyən var.

Lakin bir gün şiddətli külək dalğaları coşdurdu və qayığı çevirdi. Gənc sularda itdi. Onun yolunu gözləyən qız bu ayrılığa dözməyib özünü qaladan dənizə atdı. O gündən bu qalanı "Qız qalası" adlandırmağa başladılar.





! Sizə **"Qız qalası"** cizgi filminə baxmağı məsləhət görürəm. Cizgi filminə baxdıqdan sonra oxuduğunuz mətnlə onu müqayisə edin və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**8** Sözlərdən cümlələr düzəldib dəftərinizə köçürün.

1. xoşuma gəlir, Qız qalası, əfsanə, mənim, çox, haqqında
2. külək, çevirdi, dənizdə, balıqçı, qayığnı, şiddətli
3. tarixi, qalası, Qız, bizim, abidəmizdir

**9** Hansı sözdə saitlər samitlərdən çoxdur?

a) gündüz b) əyləncə c) araba

**10** Sözləri düzgün yazın.

qana $\frac{d}{t}$ , $\frac{b}{p}$ işik , bulu $\frac{d}{t}$ , $\frac{k}{g}$ öbələk , uldu $\frac{z}{s}$ , $\frac{b}{p}$ işirmək, alma $\frac{s}{z}$

**11*** Tapmacanın cavabını tapa bilərsinizmi?

**Tapmaca**

Suda gəzər canı yox,
Boğazlasan qanı yox.
Suya atsan o batmaz,
Quruda yatsa qalxmaz.



( . . . . . )

**12** Sözləri oxuyun.

külək, şəhər, qala, dəniz, qayıq

Hər bir sözdə neçə səs var? Həmin sözləri cümlələrdə işlədin.

**13** Söz birləşməsi düzəldin və tərcümə edin.

qədim, sirli, hündür → qala

qədim, gözəl, böyük → şəhər

**14** Əfsanədəki hadisələri düzgün ardıcıllıqla düzün və dəftərinizə yazın.

1) Gözəl qız özünü qaladan atdı.
2) O gündən qalanı "Qız qalası" adlandırdılar.
3) Gənc oğlan balıq tutmağa gedirdi.
4) Qayıq dənizdə çevrildi.
5) Şiddətli külək əsdi.
6) Gözəl qız hər gün onun yolunu gözləyirdi.



Əziz məktəbli dostlarım, indi mən sizə musiqimizdən söz açacağam.

# 7. MİLLİ MUSİQİMİZ

Azərbaycan musiqisinin tarixi çox qədimdir. Qobustanda qayaların üstündə çəkilmiş rəsmlər, qavaldaş onun qədimliyini bir daha təsdiq edir. Ən qədim musiqi alətimiz olan qopuz Dədə Qorquddan bizə yadigar qalmışdır.

Xalq musiqisi milli musiqi alətlərimizlə ifa edilir. Tarixən 60-dan çox milli musiqi alətimiz olmuşdur: qopuz, saz, tar, kamança, tütək, balaban, nağara, qaval, qoşanağara və s.

Dilimiz gözəl olduğu kimi, musiqimiz də gözəldir. Dünya şöhrətli bəstəkarlarımız, müğənnilərimiz milli musiqimizi dünyanın hər yerində səsləndirirlər. Azərbaycan muğamı dünya şöhrəti qazanmışdır.

Biz musiqimizi qorumalıyıq, sevməliyik.

## Tapmaca

Qoz ağacın oyarlar,
Üstünə tel qoyarlar.
Vaxtsız durub ağlasa,
Qulağını burarlar.



( . . . . . . . )



**1** Hansı milli musiqi aləti sizin daha çox xoşunuza gəlir? Onun haqqında danışa bilərsinizmi? Hansı bəstəkarları tanıyırsınız? Hansı xalq mahnısını sevirsiniz? Oxuya bilərsinizmi? Hansı janrda yazılmış musiqi daha çox xoşunuza gəlir? Nə üçün? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

**2** Verilmiş ifadələri cümlələrdə işlədə bilərsinizmi?



xalq musiqisi
milli musiqi
xalq musiqi aləti
qədim musiqi
xalq müğənnisi
dünya musiqisi
qədim musiqi aləti

**3** Şəkildə təsvir olunan musiqi alətlərini tanıyırsınız? Adlarını tələffüz edin və dəftərinizə yazın.



**4** **“Dədə Qorqud”** filmində hansı musiqi alətini görmüşsünüz? Qorqud baba bu alətdən nə zaman istifadə edirdi?

**5** Dəftərinizə köçürün, sait səslərin altından bir, samit səslərin altından iki xətt çəkin.

tar, kamança, nağara, tütək, saz
Atam tar çalır. Qardaşım nağara çalır. Aysel rəqs edir. Günay mahnı oxuyur.

**6*** Şeiri əzbərləyə bilərsinizmi?

## Təzə mahnı sorağında

Ana yurdu dolaşıram
Təzə mahnı sorağında.
Dəniz keçib dağ aşıram
Təzə mahnı sorağında.

Gülür sazım, gülür ürək,
Arzularım açır çiçək.,
Səməndərtək yanmaq gərək
Təzə mahnı sorağında.



Düşmənimdir dava, silah,
İstəyimdir nurlu sabah,
Cavanlaşır aşıq Pənah
Təzə mahnı sorağında.

*Aşıq Pənah*

**6*** Cümlələri davam etdirə bilərsiniz? Müəlliminiz sizə kömək edəcək.

Mən dolaşır...
Sən dolaşır...
O dolaşır

Biz dolaşır...
Siz dolaşır...
Onlar dolaşır...

**7** **A)** Şeirdə işlənmiş **“dolaşıram”** sözünü hansı sözlə əvəz etmək olar?

a) gəzirəm b) qaçıram c) yeriyirəm

**B)** **“nurlu”** sözünü hansı sözlə əvəz edə bilərik?

a) qaranlıq b) işıqlı c) atəşli

**C)** **“dava”** sözünün əks mənası hansıdır?

a) sülh b) döyüş c) müharibə

**D)** Qırmızı rəngdə verilmiş ifadənin mənasını necə izah etmək olar?

a) arzularım həyata keçir b) arzularım çoxalır

c) arzularım çiçək qədər çoxdur



**8** Sizcə, Aşıq Pənah bu şeiri hansı musiqi alətində ifa edib?

**9** Sağ tərəfdəki sütundan uyğun gələn sözü əlavə etməklə cümlələri tamamlayıb yazın.

| | |
|---|---|
| Xalqımız musiqini ... | dolaşır. |
| Musiqi alətlərimiz ... | bəstələyiblər. |
| Biz öz milli rəqslərimizi sevə-sevə ... | sevir. |
| Bəstəkarlarımız çoxlu mahnı ... | qədimdir. |
| Xalq mahnılarımız eldən-elə ... | öyrənirik. |



Uşaqlar, siz, əlbəttə, cəsurlara, qəhrəmanlara hörmət edirsiniz. Özünüz də cəsur olmaq istəyirsiniz. Onda gəlin, görək cəsarət, qəhrəmanlıq nə deməkdir?

Budur, sizin yoldaşınız yüksək sürətlə gedən maşının qabağından qaçıb küçəni keçir. Sizcə, onun belə cürətli hərəkət etməsi qəhrəmanlıqdırmı? Axı onun bu “cürəti” bədbəxt hadisəyə səbəb ola bilər. Nəticədə, onun həm özü, həm də yaxın adamları həyəcan keçirərlər. Deməli, mənasız bir şeyə görə özünü təhlükəyə atmaq qəhrəmanlıq deyil. Qəhrəmanlıq Vətən, xalq naminə özünü qurban verməkdir.

# 8. BİZİM QƏHRƏMANLARIMIZ

Vətənimiz qəhrəmanlar ölkəsidir. Qəhrəman insanlar cəsarətli, qorxmaz, ______, mərd olurlar. Çox qədim zamanlardan bizim Cavanşir, Babək, Koroğlu kimi xalq qəhrəmanlarımız olub. Onlar bizim Vətənimizi göz bəbəyi kimi qoruyublar. Bizim yaşadığımız dövrdə də bir çox insanlar qəhrəmanlıqlar göstərmişlər. Torpağımızı düşmənlərdən təmizləmək uğrunda **canlarından keçmişlər**. Əlif Hacıyev, Çingiz Mustafayev belələrindəndir. Hər il "Şəhidlər xiyabanı"na gedib qəhrəmanların məzarlarını ziyarət etmək bizim borcumuzdur.



Uşaqlar, indi suallara cavab verə bilərsinizmi?

**1** Mətndə hansı suala cavab yoxdur?

A) Qəhrəman insanlar necə olurlar?
B) Hansı qəhrəmanları tanıyırsınız?
C) Çingiz Mustafayevin hansı qəhrəmanlığından danışılır?

**2** Mətndə ağ boşluğun yerinə hansı sözü yazmaq olar?

a) böyük　　b) igid　　c) qorxaq

**3** Sizcə, mətndə qırmızı hərflərlə yazılmış sözü hansı sözlərlə əvəz etmək olar?

a) müharibə aparmışlar　b) həyatlarını qurban vermişlər　c) yaşamışlar

**4** Cümlələri təhsil aldığınız dilə tərcümə edin.

Azərbaycan qəhrəmanlar ölkəsidir. Qəhrəmanlar yurdumuzu düşməndən qoruyurlar. Biz hər il Şəhidlər Xiyabanını ziyarət edirik.

**5** Əvvəlcə müsbət, sonra mənfi keyfiyyətlərin adlarını bildirən sözləri seçib sütunlarda yazın.

***Nümunə:***

| müsbət | mənfi |
|---|---|
| ______ | ______ |
| ______ | ______ |
| ______ | ______ |

köməkçi sözlər: *qəhrəman, paxıl, qorxaq, igid, mərd, satqın, vətənpərvər, davakar, tərbiyəli, çalışqan, qorxmaz, yalançı*



Əziz dostlar, atalar sözünü oxuyun, mənasını izah edin.

***Atalar sözü***

*İgid ölər, adı qalar.*

**7** Atalar sözünü köçürün. Burada hansı sözlər əksmənalıdır? Onların altından xətt çəkin. Onlara yaxınmənalı söz tapmağa çalışın.



Uşaqlar, Azərbaycan dilində elə sözlər var ki, sonunda "**q**" ya da "**k**" hərfləri işlənir. *Məsələn*: qəhrəmanlıq, böyük. Belə sözlərdən sonra sait səs işlənərsə, **q** samiti "**ğ**" samitinə, **k** samiti "**y**" samitinə keçir: *qəhrəmanlıq – qəhrəmanlığın*
*böyük – böyüyün*

**8** Sözləri elə dəyişin ki, "q" samiti "ğ" samiti ilə əvəz olunsun. Həmin sözləri dəftərinizə köçürün, bəziləri ilə cümlə qurun.

qaşıq, qulaq, qatıq, yarpaq, budaq, qoruq, daraq

***Nümunə:*** dodaq - dodağım

**9** **O** sözünü **mən** sözü ilə əvəz etməklə cümlələri dəyişib oxuyun. Sonra cümlələri dəftərinizə yazın.

O, qoçaqdır. O, uşaqdır. O, böyükdür.

**10** * Mətni oxuyun. Məzmununu danışmağa çalışın.

## Fəxri Xiyabanda

Bir gün Əli məktəbdən təzə xəbərlə gəldi.

– Biz bu gün "Azərbaycan" şeirini öyrəndik. Müəllim dedi ki, bu şeiri məşhur şairimiz Səməd Vurğun yazıb. Onu da söylədi ki, Səməd Vurğunun qəbri Fəxri Xiyabandadır. Fəxri Xiyabanda xalqımızın bir çox layiqli övladları dəfn edilib. Ulu öndər Heydər babamızın da qəbri oradadır.

Bacısı Leyla Əliyə dedi:

– Gəl atadan xahiş edək, bazar günü bizi ora ziyarətə aparsın. Axı Vətənimizin layiqli insanlarını həmişə hörmətlə yad etmək lazımdır.

**11** Mətnin məzmununa hansı atalar sözü uyğun gəlir?

***Atalar sözləri***

*a) Dost yaman gündə tanınar.*
*b) Doğma yurd şirin olar.*
*c) İgid oğul elin yaraşığıdır.*

**12** Nöqtələrin yerinə uyğun gələn samitləri artırmaqla köçürün.

Uşa...lar Fəxri xiyabanda gəzirdilər. Hava soyu... idi. Bərk külə... əsirdi. Onlar külə...i hiss etmirdilər. Başında qula...lı papa...ı olan Əli Leylanın əlindən tutmuşdu. Birdən uşa...lar aya... səsləri eşitdilər.

**13** Uşaqlar, bu sözlərə əksmənalı sözlər tapa bilərsinizmi?

qəhrəman, xeyirli, çalışmaq, yad etmək, dost, yaman



Əziz dostlarım, bilirsiniz ki, dünyada nə qədər ölkə var?! Amma hər kəsə öz Vətəni əzizdir. Bizə də öz Vətənimiz – Odlar Yurdu Azərbaycanımız əzizdir.

# 9. AZƏRBAYCANIM MƏNİM

Dünyada ölkələr var
Biri-birindən qəşəng.
Doğma yurdum, şən diyar,
Çəmənlərin rəngbərəng.
Sən hər yerdən gözəlsən,
Bir işıqlı əməlsən.
Qoy dolanım başına,
Torpağına, daşına
Qurbandır canım mənim,
Azərbaycanım mənim!

*Məmməd Araz*

1 Şeiri ifadəli oxuyun.

2 Şeirdə altından xətt çəkilmiş sözlərə hansı sualı vermək olar?

a) neçə? b) necə? c) nə?

3 **"Rəngbərəng"** sözünü hansı sözlə əvəz etmək olar?

a) əlvan b) qırmızı c) rəngli

4* Şair nə üçün Vətənimizə **"Sən hər yerdən gözəlsən"** – deyə müraciət edir? Siz bunu izah edə bilərsinizmi?



Uşaqlar, Azərbaycan dilində elə sözlər var ki, yazıldığı kimi tələffüz edilmir. Belə sözləri yadınızda saxlasanız yaxşı olar.
*Məsələn:* qızlar [qızdar], oğlanlar [oğlannar], müəllim [mə:llim], ailə [ayilə], saat [sa:t], dəftərlər [dəftərrər].

5 Verilmiş sözlərdən hansının tələffüzü fərqli deyil?

a) qəşəng b) rəngbərəng c) gözəlsən

6 **"Çəmənlər"** sözünü necə tələffüz edirik?

a) çəmənlər b) çəməndər c) çəmənnər

**7** Oxuyun. Sözlərin yazılışı ilə tələffüzü arasındakı fərqə fikir verin.

| Belə yazılır: | Belə tələffüz edilir: |
|---|---|
| yaşayır | [yaşıyır] |
| saxlayır | [saxlıyır] |
| oynayır | [oynuyur] |
| işləyir | [işdiyir] |
| dişləyir | [dişdiyir] |
| qaynayır | [qaynıyır] |

**8** Uşaqlar, bu nitq etiketlərini əzbərləyin ki, lazım gələndə işlədə biləsiniz.

### Görüşmə, vidalaşma məqamında

Sabahın(ız) xeyir!
Günortan(ız ) xeyir!
Axşamın(ız) xeyir!
Xudahafiz! Sağ ol (un)
Gecən(iz) xeyrə qalsın!
Uğurlar olsun!
Yeni (gələn) görüşə qədər!
Salamat qal(ın)!
Hamıya salam de(yin)!
Sağlıqla qal(ın)!

**9** Sualların köməyi ilə cümlələri genişləndirin.

1. Uşaqlar oynayırlar (harada? nə ilə?)
2. Gəmi üzür (hansı? harada?)
3. Məhsul yığırlar (kimlər? harada? necə?)
4. Rəssam çəkir (nə? harada? necə?)
5. Sürü qayıdır (haradan? nə vaxt?)

**10** Birinci sütundakı sözlərin hər birini ikinci sütundakı sözlərdən uyğun gələni ilə birlikdə dəftərinizdə yazın.

| | |
|---|---|
| yekə | oğlan |
| böyük | gəmi |
| ağıllı | heyvan |
| körpə | meyvə |
| maraqlı | kitab |
| xırda | duz |
| narın | uşaq |

**11** Buraxılmış hərfləri əlavə edib köçürün.

xoşb..xt, n..qtə, g..niş, stək..n, q..zet, ç..kic, n..vbətçi, bit..i, çərşə..bə, va..zal, m..ntyor, q..nçə, y..şik, tə..bəl, k..rvan, n..bar.

**12** *Yanıltmacı tez-tez deməyə çalışın.

Yemişləri yemişdilər,
Yeyə-yeyə demişdilər:
Yeyilmişdi yetişməmiş yemişlər,
Yetişmişdi yeyilməmiş yemişlər.



*Teymur Elçin*

**13** Mətni oxuyun. Məzmununu danışmağa çalışın.



Düşmən qoşunları sərhədə toplaşmışdılar. Onlar şaha xəbər göndərdilər ki, ya yüz kisə qızıl verməlidir, ya da müharibə edəcəklər. Şah qan tökməmək üçün düşmənə yüz kisə qızıl göndərdi.

Bir neçə aydan sonra düşmən xəbər göndərdi ki, ya atını versin, ya da müharibə olacaq. Şah bu dəfə də atını verdi.

Bir neçə gündən sonra isə düşmən torpaq istədi. Şah dedi:

– Torpaq vətəndir. Vətəni verməzlər. Torpaqdan pay olmaz.







Uşaqlar, heç bilirsiniz?...

Azərbaycan əlifbasında **32** hərf var. Hər hərf bir səsi ifadə edir. Təkcə **“k”** hərfi iki səsi ifadə edir və iki cür səslənir: [**ka**] – [**ke**]

*Məsələn:* [**ka**] —— klub, konsert, direktor
[**ke**] —— kitab, kino

**14** Verilmiş sözləri aşağıdakı kimi qruplaşdırın:

Birinci sütunda tərkibində [***ka***] səsi olan sözlər:
İkinci sütunda tərkibində [***ke***] səsi olan sözlər:

heykəl, külək, klub, kino, kəpənək, kiçik, körpü, skripka, qalstuk, kosmos, konsert, dekabr, oktyabr, bank.

# 10. BAKI





Azərbaycanın paytaxtı Bakı qədim şəhərdir. Bu şəhər Xəzər dənizinin ______ yerləşir. Burada həm quruda, həm də dənizdə ______ və qaz çıxarılır.

Bakı küləkli şəhərdir. Keçmişdə onu “Badi-Kubə” deyə adlandırarmışlar.

Bakı gündən-günə böyüyür. Şəhərin mərkəzindəki ______ evlər sökülür, yerində çoxmərtəbəli, yaraşıqlı binalar tikilir. Bağlar bol məhsul verir.

Bakı ______ mədəniyyət mərkəzidir. Burada ______ ali məktəblər, teatrlar, kitabxanalar, əyləncə mərkəzləri var. Şəhəri heykəllər, ______ abidələr bəzəyir.

**1** Mətni oxuyun və məzmununu danışın.

**2** Boş xanalara sözləri yazmaq mənim yadımdan çıxıb. Siz yaza bilərsinizmi?

köməkçi sözlər: *sahilində, tarixi, çoxlu, neft, köhnə, böyük*

**3** Mətndə hansı cümlə yerində işlənməmişdir?

**4** Sözlərdən cümlə düzəldin və yazın.

heykəllər şəhəri bəzəyir abidələr

yaraşıqlı tikilir çoxmərtəbəli şəhərdə binalar

Xəzər sahilində şəhər bu dənizinin yerləşir

**5** Mətnə hansı sualı vermək olmaz?

1) Azərbaycanın paytaxtı haradır?
2) Bakı şəhəri harada yerləşir?
3) Kim Bakını Odlar Yurdu adlandırmışdır?
4) Bakının görkəmi necə dəyişir?
5) Şəhəri nə bəzəyir?



Uşaqlar, siz Azərbaycan dilində sərbəst danışırsınız, oxuyursunuz və yazır - sınız. İndi isə, Azərbaycan əlifbasındakı bəzi səslərə fikir verək!

Dilimizdə elə səslər var ki, onlardan bəzi dillərdə yoxdur.
**[ə], [ö], [ü], [g], [ğ], [h], [c]**
Bu səslərə spesifik səslər deyilir.
*Məsələn*: əl, ördək, üzüm, gül, dağ, heyva, cücə

**6** Verilmiş sözləri köçürün və spesifik səslərin altından xətt çəkin.
məktəb, gəmi, qağayı, həyat, ceyran, ölkə, ürək, bağ, həyət, gəmi

**7** 

Siz bilirsiniz ki, şəhərimiz gündən-günə gözəlləşir. Onun belə gözəlləş- məsində insanların böyük əməyi var.



Üçüncü sinifdə axırıncı dərs gedirdi. Dərsin mövzusu şəhərin yeni tikintiləri haqqında idi. Müəllim soruşdu:

– Uşaqlar, dərsimizə aid kimin sualı var?

Yeganə söz alıb dedi:

– Müəllim, siz deyirsiniz, indi binaların çoxunu maşınlar tikir. Bəs cansız maşınlar binaları necə tikir?

Ertəsi gün dərsdən sonra müəllim uşaqları tikintiyə apardı. Burada çoxlu fəhlə və maşın vardı. Şagirdlər tikintidəki nəhəng maşınların işi ilə tanış oldular. Uzun xortumlu qaldırıcı kranın işi uşaqları lap heyrətə salmışdı. Bu nəhəng maşın daşı, palçığı, taxtanı, hətta bütöv divarları da yuxarı mərtəbələrə qaldırırdı.

Uşaqlar təəccüblərini gizlədə bilmirdilər. Yeganə isə cansız maşınların binaları necə tikməsinə şübhə etdiyi üçün peşman olmuşdu.

Müəllim dedi:

– Uşaqlar, yadınızdan çıxarmayın ki, bu maşınları idarə edən insanın ağlı və qüvvəsidir.

*İsa Hüseynovdan*

**8** Verilmiş mətni necə adlandırmaq olar?

a) məktəbdə b) tikintidə c) şagirdlərin sevinci

**9*** Tikintidə işləyən daha hansı maşınları tanıyırsınız? Adlarını yazın.

**10*** Mətndən spesifik səslər işlənmiş sözləri seçib yazın.

**11** Yeganənin müəllimə verdiyi suala sən necə cavab verərdin? Danış, qulaq asaq.

**12** Nitq etiketlərini öyrənməyə çalışın. Yoldaşlarınızla hər hansı bir mövzuda dialoq qura bilərsinizmi?

### Telefonla söhbət



– Bəli, eşidirəm!
– Siz hara zəng edirsiniz?
– Siz hansı nömrəni yığırsınız?
– Zəhmət olmasa, ...çağırın.
– Bir dəqiqə gözləyin.
– Bir azdan zəng edin.
– Bir də zəng etmək sizin üçün çətin deyil ki?
– Təəssüf ki, o, evdə yoxdur.



**13** Göy hərflərlə verilmiş sözlərdə spesifik səsləri göstərin.

### *Atalar sözləri*

- *Doğma yurd şirin olar.*
- *Elin gücü bir olsa, düşməni dara çəkər.*
- *Hər kəsə öz vətəni əzizdir.*
- *Hər quşa öz yuvası doğmadır.*
- *Ağac meyvəni dəyənə qədər böyüdər.*

Verilmiş atalar sözləri hansı mövzudadır?
Bəs siz əmək, zəhmət haqqında atalar sözü bilirsiniz? Bir neçəsini yazın.



Uşaqlar, indi mən sizə Vətənimizin ən qiymətli incisi olan, dünyanın ən böyük gölü sayılan Xəzər dənizi haqqında söhbət açacağam.

# 11. XƏZƏR DƏNİZİ

Yer kürəsində ən böyük göl Xəzərdir. Xəzərə yüz otuza qədər çay tökülür. Xəzər böyüklüyünə görə "dəniz" adlanır. Paytaxtımız Xəzər dənizinin sahilində yerləşir. Bu da paytaxtımız Bakıya daha da gözəllik verir. Xəzər dənizinin bizə xeyri çoxdur. O, havanı təmizləyir, başqa ölkələrdən gələn sərt küləklərin qabağını alır. Onun suyu da faydalıdır.

Xəzərin altı neft və qaz ehtiyatları ilə zəngindir. Xəzərdə qiymətli balıqlar yaşayır. Dənizin böyük nəqliyyat əhəmiyyəti var. Xəzər sahillərinin qumu bir sıra xəstəliklərin dərmanıdır.

Biz öz dənizimizi çox sevirik. Hər kəs çalışmalıdır ki, Xəzər dənizinin suyunun çirklənməsinin qarşısını alsın. Xəzəri qorumaq hamının borcudur.

**1** Mətndə qırmızı hərflərlə verilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?

a) digər, xeyirlidir, bir çox
b) ayrı, zərərlidir, bir çox
c) aralı, əhəmiyyətlidir, bir az

**2** Mətnə hansı sualı vermək olar?

a) Xəzər dənizində hansı balıq növləri var?
b) Xəzər dənizi harada yerləşir?
c) Xəzərin sularının çirklənməsinin səbəbi nədir?

*Siz özünüz mətnə suallar tərtib edə bilərsinizmi? Tərtib etdiyiniz sualları dəftərinizə yazın.

**3** İndi isə parta yoldaşınızla yarışın. Görək kim I sütunda verilən sözə daha tez əksmənalı söz tapar? Tapdığınız sözləri dəftərinizə yazın.

| I | |
|---|---|
| faydalı | ________ |
| xəstəlik | ________ |
| çox | ________ |
| sevirik | ________ |
| çirklənməsi | ________ |
| gözəllik verir | ________ |
| sərt | ________ |





**4** Bu sözləri təhsil aldığınız dilə tərcümə edin.

sahil, külək, ölkə, xeyir, hava, sevmək, təmizləmək

**5** Cümlələrdə nöqtələrin yerinə uyğun gələn əksmənalı sözü tapın və dəftərinizə yazın.

Kitabda suallar və . . . verilib.
Kim çox bilmək istəyirsə, . . . yatmalıdır.
Deyirlər ki, sevinc və . . . qardaşdır.

**6** Sıranı davam etdirin.

dəniz adları: Xəzər . . .
çay adları: Kür . . .
göl adları: Göygöl . . .
dağ adları: Qoşqar . . .
şəhər adları: Bakı ......

**7** Şeiri əzbərləyə bilərsinizmi?

Bu balıqlar
Üzür suda.
Özünə yem
Gəzir suda

Göy su olub,
Şüşə evi.
Yaşadığı
Evi sevir.

* *

Balıq suda
Güclü olur.
Yemi xırda
Cücü olur.

* *

Su onların
Köynəyidir.
Akvarium
Eynəyidir.



*M. Quluzadə*

**8** Şeirdə haqqında danışılan balıqlar harada yaşayır?

a) çayda b) dənizdə c) akvariumda

**9** Şeirdə tərkibində **"ə"** səsi işlənmiş neçə söz var?

a) 5 b) 4 c) 6

**10** Buraxılmış saitləri artırmaqla sözləri köçürün.

p...ncərə, s...kkiz, m...tbəx, q...lın, p...ndir, g...niş, ...nli, s...rin, süfr..., şüş..., eyn...k.

**11** **"Ə"** hərfi ilə başlanan meyvə adlarını seçib yazın.



**12** Hər bir sözün qarşısında nümunəyə uyğun olaraq sözlər yazın.

dəniz: böyükdür, mavidir, təmizdir;
külək:
hava:
su:
dağ:
şəhər:

# 12. GÖYGÖL





Göygöl dünyanın ən gözəl göllərindən biridir. Bu gözəl göl Gəncə şəhərinin yaxınlığında yerləşir. Yayda insanlar gölün sahilində istirahət edirlər. Onun ətrafı sıx meşəlikdir. Bu göl 800 il bundan əvvəl zəlzələ nəticəsində yaranıb. O vaxt Kəpəz dağı uçaraq Ağsu çayının yolunu kəsmişdi. Bunun nəticəsində də gözəl bir göl əmələ gəlmişdi. Gölün suyu çox təmiz və durudur. Ona görə də onun ətrafındakı meşələr suda əks olunur. Gölün suyu içməlidir. İndi Göygöl Dövlət qoruğu elan edilmişdir.

**1** Mətnə aid suallar tərtib edib dəftərinizə yazın.

**2** **"Dövlət qoruğu"** deyəndə siz nə düşünürsünüz?
Qoruq sözünü cümlədə işlətməyə çalışın.

**3** * Bilirsinizmi, Göygölün ətrafında hansı göllər var? Bunu bilmək yoldaşlarınıza da maraqlı olar. Bu suala cavab tapmaqda müəlliminiz sizə kömək edər.

**4** Verilmiş sözə uyğun əlamətləri seçib cümlə şəklində yazın.

Göl
- maraqla, mənalı
- duru, təmiz
- şirin, səliqəli
- dadlı, qırmızı
- yaşıl, dərin

**5** **"Göygöl"** sözündə olan spesifik səsləri seçib yazın. Həmin səslərlə başlanan daha bir neçə söz tapıb onları cümlədə işlədin.

**6** **Kömək etmək, qulluq göstərmək** məqsədilə hansı ifadələri işlədə bilərsiniz?

İcazə verin kömək edim; razıyam, sağ olun; üzr istəyirəm; yuxunuz şirin olsun; sizə kömək etmək lazımdırmı?; xoşuma gəlir; nəzakətli olun.

**7** Şeiri əzbərləyin.

## Göygöl

Dağların **zərif** qarı,
Mavi **gözəli** Göygöl!
Maralların güzgüsü,
Dili nəğməli Göygöl!

Günəş gözlü Göygölüm,
Mənim quzum, Göygölüm!
Başı qarlı dağların
Zərif qızı Göygölüm!

**Qəhrəman** Həcərimin
Sən mavi örpəyisən.
Bu dağlarda çırpınan
Koroğlu ürəyisən.

*Fikrət Qoca*

**8** Şeirdə qırmızı hərflərlə verilmiş sözlərin sinonimləri hansı variantda düzgün göstərilmişdir?

a) uzun, göyçək, mərd  b) incə, yaraşıqlı, igid  c) nazik, iri, ağıllı

**9** Şeirdə hansı qəhrəmanın adı çəkilir? Bilirsinizmi Həcər kimin adıdır? Müəllimin köməyi ilə bu suala cavab verməyə çalışın

**10** Şəkildə gördüklərinizin adlarını dəftərinizə yazın.






**11** I sütunda **"ö"** səsi, II sütunda **"ə"** səsi işlənmiş sözləri seçib yazın.

s...hbət, b...yük, s...liqəli, ...lkə, mü...llim, m...tn, s...z, s..kkiz, d...rd, neç...

**12** Rəqəmləri sözlə yazın. Tərkibində **"ö"** və **"ə"** səsləri işlənən rəqəm adlarının altından xətt çəkin:

1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 50

**13** Atalar sözünü öyrənin.

**Atalar sözü**

*Dünyada ən gözəl yer Vətəndir!*



Uşaqlar, indi isə Azərbaycanın çox gözəl guşələrindən birinə səyahət edək!

# 13. DAĞLAR GÖZƏLİ ŞƏKİ



Şəki Vətənimizin ən gözəl guşələrindən biridir. Onun çox qədim tarixi vardır. Bu gözəl diyar dağlar qoynunda yerləşir. Şəkinin gözəl mənzərəsi var. Marxal, Soyuq bulaq, Gələrsən-görərsən qalası, Xan sarayı, qədim karvansaralar onun ən görməli yerləridir. Şəki Xan sarayı şəhərin mərkəzində yerləşir. Buraya gələn qonaqlar Xan sarayını görməyə tələsirlər. Şəkililər öz şəhərləri ilə fəxr edirlər.

**1** Mətndə hansı sualın cavabı yoxdur?

A) Şəki harada yerləşir?
B) Xan sarayı neçənci ildə tikilmişdir?
C) Şəkidə hansı görməli yerlər var?

**2** Parta yoldaşınıza mətnə aid suallar verə bilərsiniz? Kim daha çox sual verər? Tərtib etdiyiniz sualları dəftərinizə yazın.

**3** Mətndən Şəkinin görməli yerlərinin adlarını seçib yazın və cümlələrdə işlədin.

**4** Cümlələrdə hansı sözlər səhv yazılmışdır. Səhvləri düzəltməklə onları dəftərinizə köçürün.

a) Şəkililər öz şəhərrərini sevirlər.
b) Şəkililər fəxr edillər ki, Şəki belə gözəldi.
c) Şəkililər öz şəhərləri ilə fəxr edillər.

**5*** Şeiri əzbərləyin.

Yayın əfsanədir, qışın nağıldır,
Baharın gəlintək gözəldir, Şəki!
Düzün qırqovullu, gölün balıqlı,
Meşəsi, talası maralllı Şəki!

*Cahangir Aslanoğlu*

**6** Mətnə əsasən Şəkini öz sözlərinizlə təsvir edin.

**7** 

Uşaqlar, Şəkidə nəinki böyüklər, hətta uşaqlar da hazırcavab olurlar, məzəli əhvalatlar danışırlar. Bu əhvalatı siz də kiçik dostlarınıza danışarsınız.

## Məzəli dialoq



Şəkili Zaur yolu qırmızı işıqda keçirdi. Bunu görən yol müfəttişi onu saxlayıb soruşdu:

– Sən hansı məktəbdə oxuyursan?

Zaur əvvəl fikirləşdi, sonra ağlına nə gəldisə, gülümsəyərək dedi:

– Evimizin yanındakı məktəbdə.

– Bəs eviniz haradadır? – deyə müfəttiş soruşdu.

Zaur özünü itirmədən dedi:

– Məktəbin yanında.

**8** Uşaqlar, Zaur yolu nə zaman keçməli idi?



O, yol hərəkəti qaydalarını bilirmi?

Bu rənglər nəyi bildirir?

Yol hərəkəti qaydaları barədə bildiklərinizi yoldaşlarınıza danışın.

**9**

**Yadda saxlayın!**

Yolu keçəndə əvvəl sol tərəfə, sonra sağ tərəfə baxın.

Yeraltı və yerüstü keçidlərdən mütləq istifadə edin.

Nəqliyyatdan düşəndə arxa tərəfdən keçin.

**10** Şəkillərdəki yol nişanlarını izah edə bilərsinizmi? Bu işdə sizə müəlliminiz kömək göstərə bilər.



**11** Buraxılmış saitləri nöqtələrin yerinə yazaraq köçürün.

k...çə, k...lək, ...rək, ...z...m, ...t..., ...z...k, ...z, y...z, s...frə, m...barək, ş...şə, z...rafə

*Hansı saitdən istifadə etdiniz? Bu sait barədə nə deyə bilərsiniz?

**12** Sözlərin deyiliş və yazılış şəklini yadınızda saxlayın və bir neçəsini də özünüz əlavə edin.

keçid - [keçit]
işıq - [işıx]
müfəttiş - [müfətdiş]
uşaqlar - [uşaxlar]

**13** Nəqliyyatda gedərkən hansı nəzakətli sözlərdən istifadə etmək olar? Bu sözləri seçib yazın.

buyurun, qalxın; zəhmət olmasa icazə verin; mənə mane olmayın; o tərəfə keçin; bağışlayın; siz indi düşürsünüz?; saxla; dayan.

**14** Yadda saxlayın!



– Bağışlayın, siz indi düşürsünüz?
– İndi hansı dayanacaqdır ki?
– "Sahil".
– Bəs növbəti dayanacaq?
– "İçərişəhər".
– Onda mən növbəti dayanacaqda düşürəm.
– Deyə bilərsinizmi, Şəhidlər xiyabanına necə getmək olar?
– "İçərişəhər" metrosundan çıxın, sonra isə avtobusa minin.
– Çox sağ olun, təşəkkür edirəm.



Uşaqlar, siz bu dialoqu davam etdirə bilərsiniz. Müəlliminiz sizə kömək edəcək.

**15** Tapmacanın cavabını tapın.

O hansı quşdur elə,

Təmizdir hər işində.
Bir baxın ağ kətandan
Önlük də var döşündə.

(. . . . . . . .)



# 14. TƏBİƏT





Yaşadığımız dünya, bizi əhatə edən təbiət gözəldir, maraqlıdır. Biz özümüz də təbiətin bir hissəsiyik. Bizi bitkilər, vəhşi heyvanlar, həşəratlar əhatə edir. Yer kürəsində yaşayan insanlarla təbiət arasında möhkəm dostluq əlaqələri var. Əgər bu dostluq pozularsa, dünyada fəlakət baş verər. Bunun üçün biz planetimizin florasını və faunasını qorumalıyıq.

**1** Mətni oxuyun, qısa məzmununu danışmağa çalışın.

**2** 

Oxuduğunuz mətnə kim daha çox sual verə bilər? Birinci sualı mən verirəm:
– Bizi əhatə edən təbiət necədir?

**3** Gördüyünüz atalar sözünü deməklə babalarımız nə demək istəmişlər? Bunu öz sözlərinizlə izah edə bilərsinizmi?

***Atalar sözləri***

*Torpaq deyir: öldür məni, dirildim səni.*
*Vaxtı itirsən hədər, görərsən böyük zərər.*
*Gün girən evə həkim girməz!*

**4** Verilmiş sözlərdən cümlə düzəldin.

Həyət, uşaqlar, oyna, top, ilə.

bağçada, ağac, bağban, əkir.

heyvanlar, mən, sevmək, çox.

**5** Şəkildə gördüklərinizi təsvir edin. Hər şəklə aid bir cümləni dəftərinizə yazın.









**6** Suallara cavab verin.

| | |
|---|---|
| – Təbiət necədir? | – Gözəldir. |
| – Ağac necədir? | – ... |
| – Alma necədir? | – ... |
| – Hava necədir? | – ... |

**7** Tərcümə edin.

balaca, gözəl, böyük, kiçik, qəşəng, yaxşı, şən, uzaq, sarı, qara, yaşıl, dadlı, şirin

**8**



Uşaqlar, torpağın bizə verdiyi ən böyük nemət çörəkdir. Siz heç bilirsiniz ki, çörək üçün həmişə xəmir yoğurmaq lazım deyil? Mən sizə danışaram, siz də evdəkilərə danışın.

## Çörək ağacı



Dünyada elə yerlər var ki, orada çörək mağazada yox, ağacda olur, yəni ağacda bitir. Düzdür, ağacda olarkən onlar hələ çiy, bişməmiş olur. Bu yerlərin əhalisi çörəyi təndir əvəzinə, közərmiş daş üzərində bişirirlər.

Yetişməmiş "çörək" kal meyvələr kimi yaşıl rəngdədir. Yetişəndən sonra qəhvəyi rəngdə olur. Çörək ağacı 70-75 il məhsul verir. Bu ağac tropik meşələrdə bitir.

**9** Mətndən spesifik səslər olan sözləri seçib dəftərinizə yazın.

**10** Səsləri sözlərə əlavə edib yazın.

| da . | . avalı | ç . r . k | . alva | . orab | b . lb . l |
|---|---|---|---|---|---|

**ğ, g, ö, ə, h, c, ü**

**11** Tapmacanın cavabını tapın.



**Tapmaca**

Yağış yağanda,
Çimər, yuyunar.
Yazda geyinər,
Qışda soyunar. (. . . . )

**12** Nöqtələrin yerinə uyğun gələn sözləri tapıb dəftərinizə köçürün.

| | |
|---|---|
| Yaşar dayı bağda ... . | maraqlı |
| Ağaclar yazda ... açır. | çiçək |
| Uşaqlar bağda ... toplayırlar. | işləyir |
| Müəllim bağda ... hekayə danışır. | meyvə |

**13** Verilmiş cümlələrdə **"ğ"** hərfi işlənmiş sözləri seçib yazın.

Bağban bağda çoxlu ağac əkmişdi.
Baba həyətin bağlı qapısının qabağındakı skamyada oturmuşdu.
Soğan əkilmiş tağda çoxlu məhsul var idi.

**14** Oxuyun, cümlələri təhsil aldığınız dilə tərcümə edin.



Anası Vüqara:

– Dünən sinif rəhbəri zəng vurmuşdu. Deyirdi ki, yaman dəcəllik edirsən, dərsə qulaq asmırsan.

Vüqar:

– Anacan, burada təəccüblü nə var ki?! Sadəcə, sinif rəhbərimiz dəyişib, hələ məni yaxşı tanımır, – dedi.



Dostlar, siz heç günəşli günlərdə Günəşə baxmısınız? Onun parlaq şüaları adamın gözlərini qamaşdırır. Günəş ən böyük ulduzdur. Mən indi Günəş haqqında sizə bəzi məlumatlar verəcəyəm.

# 15. GÜNƏŞ



Günəş öz şüaları ilə torpağı, dənizlərin, göllərin, çayların suyunu isidir. Günəş yeri işıqlandırır, gecədən sonra gündüzü gətirir. Günəş bütün gün ərzində işıq saçmır, gecələr yerini Aya verir və Yer üzü qaranlığa qərq olur. Yer üzünü yalnız ulduzlar və Ay işıqlandırır. Bununla əlaqədar olaraq, insanlar, heyvanlar və bitkilər də gün ərzində gümrah olur, günəş batanda isə yatırlar.

1 Günəş haqqında dediklərimi yadınızda saxladınızmı? Bu barədə danışa bilərsinizmi?

2 İndi də mətnə aid suallar tərtib edib dəftərinizə yazın.

3 Mətndən **“g, ğ”** hərfləri işlənmiş sözləri seçib dəftərinizə yazın.

4 *Tapmacanı əzbərləyin və cavabını tapın.



Araba gedər, izi yox,
Yanar, yanar közü yox.

* * *

Yaxşıca gözəldi, hamıya baxar,
Üzünə baxanı yandırar, yaxar. (. . . . . )

5 Sözləri təhsil aldığınız dilə tərcümə edərək yazın.

gözəl, girdə, gavalı, gecə, göy, gəmi, göyərçin, gün, güzgü, gilas, gülmək, göz.

6 

Uşaqlar, indi deyin Günəş güclüdür, yoxsa külək? Sizə bu haqda hekayə danışım.

## Günəş güclüdür, ya külək?

Bir gün Günəş və Külək bir-biri ilə mübahisə edir. Günəş deyir:



– Mən çox güclüyəm. İnsanları necə istəsəm, elə idarə edə bilərəm.

Külək onun sözlərinə gülür və deyir:

– Mən güclüyəm. İnsanlar məndən qorxurlar.

Bu zaman yol ilə bir kişi gedirdi. Onun əynində pencək var idi.



Külək Günəşə dedi:

– Gəl gücümüzü yoxlayaq. Kim kişinin əynindən pencəyini çıxarsa, o, güclüdür.

Onlar razılaşdılar. Külək şiddətlə əsməyə başladı. Kişi pencəyinin düymələrini bağladı. Külək bir az da şiddətlə əsməyə başladı. Kişi pencəyinə daha da büründü.

Bir azdan Günəş çıxdı. Hər yeri qızdırdı. Kişi əvvəl pencəyinin düymələrini açdı, daha sonra onu əynindən çıxardı.

Bunu görən Günəş qürurla göy üzünə qalxdı.



Dostlar, Günəşin hekayəsini oxudunuz? Onu kiçik dostlarınıza danışın.

**7** Uyğun gələn sözləri seçib yazın.

Günəş — ... / ... / ... / ...

Külək — ... / ... / ... / ...

şiddətli
işıqlı
parıltılı
isti
soyuq
xəzri
güclü
gilavar

Sağ tərəfdə verilmiş hansı əlamətlər hər ikisinə aiddir?



**8** Yanıltmacı deyə bilərsiniz?

Bazarda nə ucuz? Mis ucuz, duz ucuz, küncüt ucuz.

Bu yanıltmac sizin nitqinizin inkişafına kömək edə bilər.

**9** Verilmiş cümlələrdə hansı sözlər yerində işlənməmişdir? Açar sözlərdən istifadə etməklə uyğun olanları seçin. Sözləri yerinə qoymaqla cümlələri köçürün.

Gecə mən məktəbə gedirdim. Yolda topla rastlaşdım. Dünən bazara nə üçün gəlmədiyini ağladım. Öyrəndim ki, özünü çox yaxşı hiss etdiyinə görə bazara gəlmişdi. Mən onun indi yoldaşını necə hiss etdiyini dedim. Mənim halı dünən yaxşı idi.



**Açar sözlər:**

özünü
xəbər aldım
dərsə
dostumla
soruşdum
səhər
onun
pis
məktəbə
gəlməmişdi
indi

**10** Aşağıda verilmiş sualları cümlədə işlədin və yazın:

kim? nə? necə? harada? nə edir?

**11** Suallara bir sözlə cavab verə bilərsiniz?

Mürəbbəni nə ilə yeyirlər?
Akvariumda hansı canlıları bəsləyirlər?
Saçı nə ilə darayırlar?
Süddən hazırlanıb, adı **"q"** ilə başlanan məhsul necə adlanır?
Ağacın gövdəsindən ayrılan hissələr necə adlanır?
Qızlara ad günlərində verilən ən gözəl hədiyyə hansıdır?

**12** Verilmiş sözlərdən yazılışca düzgün olanını seçib yazın.

ev, öv, öy; taza, tazə, təzə; tələsimək, tələsmək, teləsmək; mektəb, məktəb, məktəp; çiçəy, çiçəx, çiçək.

# 16. TORPAQ



Təbiətin gözəl bir guşəsində olarkən bizi əhatə edən gözəllikdən zövq alırıq. Bağda gəzərkən gül-çiçəklər – lalələr, nərgizlər, qızılgüllər bizi heyran edir.



Səmaya baxarkən günəş, ay, ulduzlar bizdə xüsusi ovqat yaradır. Bu gözəllikləri seyr edəndə üzərində gəzdiyimiz torpağa baxmağı unuduruq.

Ayağımızın altında zəngin, maraqlı bir dünya vardır ki, bu da **Torpaq** adlanır. Biz torpağı qiymətləndirməliyik.

**1** Mətnin məzmununu danışa bilərsinizmi?
*Mətnə aid suallar tərtib edib dəftərinizə yazın.

**2** Torpaq bizə nə verir? Nə üçün biz ona minnətdar olmalıyıq?

**3** Atalar sözlərini əzbərləyin. Babalarımız bu sözləri nə üçün deyiblər?

> ***Atalar sözləri***
> *Bağa bax üzüm olsun, yeməyə üzün olsun.*
> *Gülün qədrini bülbül bilər.*
> *Bağ salan barın yeyər.*

**4** Meyvə adları düzəltmək üçün hansı hərflər çatmır?

ə..k, t.t, a..a, a...d, n.r, ş.....ı, g....ı, ə...l, a....ı, g...s, a..a, h...a

**5** 

Uşaqlar, qulaq asın. İndi mən sizə maraqlı bir hekayə danışacağam. Siz hekayəni yadınızda saxlayın. Sonra dəftərinizə yazın. Kimin yadında yaxşı qaldı?

Bir qoca kişi bağda alma ağacı əkirdi. Oradan keçən bir oğlan ona dedi:

– Babacan, niyə zəhmət çəkirsən? Bu ağac nə vaxt meyvə verəcək? Sən axı qocasan. Onun meyvəsindən, bəlkə, yemədin.



Qoca oğlanın üzünə baxıb mehribanlıqla dedi:

– Doğrudur, bala! Mən onun meyvəsindən yeməyəcəyəm, amma sənin kimi cavanlar yeyəcək və mənə “çox sağ ol!” deyəcəklər. İnsan xeyirli işlər görməlidir. Babalarımız əkiblər, yemişik, mən də əkirəm, yeyərlər.

*(“Kəlilə və Dimnə”dən)*

**6** Mətndə “**ğ**” hərfi işlənmiş sözləri seçib yazın.

**7** Mətndə hansı suala cavab tapa bilmədiniz?

A) Qoca bağda nə edirdi?
B) Oğlan ona nə dedi?
C) Qoca ağacdan dərdiyi almanı kimə verdi?

**8** Cümlələr düzəldin.

Mən – alır..., baxır..., əkir..., dərir..., yığır..., toplayır...

Sən – alır..., baxır..., əkir..., dərir..., yığır..., toplayır...

**9** 

Uşaqlar, Elşən dostu Aydına məktub yazıb. Amma çox səhvi var. Onun səhvlərini düzəltməklə məktubu dəftərinizə köçürün.

Mən yayda kəndə babamgilə gedəcəm. O mənə söz veribki məni meşiyə, daqa aparacaq. Meşədə biz doşan vuracağıq, çayda balığ tutacaqıg. Mənim xeyvanlardan hoşum qəlir. Mektubumu qözlə.

Xələlik

**10** Siz də öz parta yoldaşınıza məktub yazın və bir-birinizin səhvlərini düzəldin. Çox maraqlı olacaq.

**11** Lətifəni oxuyun, çıxardığınız nəticəni söyləyin.

Biri yanındakı dostunu ətrafındakılara tərifləyir, axırda deyir:

– Onun müsbət cəhətləri olduqca çoxdur, yeganə nöqsanı hövsələsiz olmağı və tez özündən çıxmağıdır.

Dostu bunu eşidib əsəbi halda ona hücum edir və deyir:

– Əcəb qəribə adamsan, nə danışdığını bilirsən? Sən nə vaxt görmüsən ki, mən tez özümdən çıxım?

Qulaq asanlardan biri dedi:

– O, bəlkə, görməyib. Biz ki gördük.



# 17. SU HƏYATDIR



Susuz həyat yoxdur. Yanğımız olanda biz ____ içirik. Yuyunanda sudan istifadə edirik. Yeməyə başlamazdan əvvəl ____ yuyuruq. ____ deyə bitkiləri sulayırıq. Bəs su nədir?



Su bizim həyatımızın ayrılmaz hissəsidir. Təbiətdə suya müxtəlif hallarda ____ olar: maye, qaz və bərk halda. ____ halında su bərk olur. Həyatımızda su çox-

dur: buludlar, duman, yağış, buxar, qar.

İsti havada dənizlərin, çayların suları [ ].

[ ] gün ərzində 3-6 litrə qədər su içir. İnsanlar qidasız 5 həftə, susuz isə 5 gün yaşaya bilər.

[ ] həyatımız üçün suya minnətdar olmalıyıq.



**1** Suallara cavab verin.

Su haqqında siz daha nə deyə bilərsiniz?
Siz sudan necə istifadə edirsiniz?
Biz həyatımıza görə suya nə üçün minnətdar olmalıyıq?

**2*** Mətndəki ağ boşluqlara uyğun gələn sözləri seçin: solmasınlar, əllərimizi, insan, buz, buxarlanır, su, biz, minnətdar, rast gəlmək.

Su sözünün müxtəlif şəkillərdə işlənməsinə diqqət yetirin.



Elə sözlər var ki, tərkibindəki saitlər eyni cür səslənir. *Məs.*: “azadlıq”, sözündəki bütün saitlər qalındır: ***“a”, “a”, “ı”***.
“Kölgəlik” sözündəki bütün saitlər incədir: ***“ö”, “ə”, “i”***.
Belə sözlər ahəng qanununa tabe olur.
***Ahəng qanunu*** eynicinsli saitlərin bir-birini izləməsidir.

**3** Sözlərə ahəng qanununa uyğun olaraq **-lar, -lər** və **-da, -də** şəkilçilərini əlavə edib dəftərinizə yazın.

| | | |
|---|---|---|
| evlərdə | məktəb... | dəftər... |
| bağlarda | sinif... | ana... |
| kitab... | otaq... | valideyn... |
| həyət... | park... | qohum... |
| küçə... | qəzet... | maşın... |

**4** Nöqtələrin yerinə **c – ç** samitlərini artırmaqla sözləri dəftərinizə köçürün.

...isim, ...əyirdək, çəki..., çəhrayı, qo...a, a...ar, mər...an, bala...a, al...a, üzgü...ü, sərhəd...i, dəniz...i, qızdırı...ı, ağa..., tura..., qılın..., kitab...a, dəftər...ə, bağ...a, meydan...a

**5** Şeiri əzbərləyin.

## Təmizlik



Soruşduq balacadan
– Yuyunmusan, ay oğlan?
Söylədi aydın, açıq:
– Yuyunmuşam azacıq.
– Sifətini yumusan?
– Yumuşam.
– Qulağını yumusan?
– Yumuşam.
– Dişlərini yumusan?
– Yumuşam.
– Bəs əllərini necə?
Bu sözü eşidincə
Çirkli əlinə baxıb
Dedi: – Yadımdan çıxıb.



Balacanın sözünə inanmaq olarmı? O necə yuyunub? İzah edə bilərsinizmi?

**6*** Şəkillərə baxaraq **"Təbiətdə suyun rolu"** mövzusunda hekayə qurun və dəftərinizə yazın.






**7**



Kim mənə suda yaşayan heyvanların adını söyləyə bilər? Özünüzü yoxlayın. Bu heyvanlardan biri haqqında mən sizə danışacağam.

## Xilaskar delfinlər



Delfinlər həmişə suda batanların köməyinə tələsirlər. Yaxınlaşıb burnu ilə itələyə-itələyə suyun səthinə qaldırırlar. Bizə elə gəlir ki, delfinlər bunu düşünərək edirlər. Amma tələsməyin, bu, delfinlərdə anadangəlmə bir instinktin nəticəsidir. Axı delfinin balası doğularkən anası onu suyun üzünə qaldırır ki, körpə havada nəfəs ala bilsin. Ona görə də delfinlər suda boğulan görəndə dərhal ona kömək etməyə çalışırlar.

**8** Hansı fikir doğrudur?

a) Delfinlər çox ağıllıdırlar.
b) Delfinlər suda boğulana kömək edirlər.
c) Delfin xeyirxahlığını düşünərək edir.

**9** Cümlələri tamamlayaraq köçürün.

Uşaq... dəniz... çimirdi... . Bir... bərk külək əsmə... başla... . Cəfər çox uza... üzmüş... . Qayıtma... çətin... çəkir... . Ceyhun yaxşı üzür... . O bunu gör... geri qayıt... . Dostu... geri qayıtmaq... kömək et... .

**10** Təhsil aldığınız dilə tərcümə edə bilərsinizmi?

Köməyə tələsmək
Düşünərək hərəkət etmək
Kömək etmək üçün çalışmaq

**11** Lətifəni oxuduqdan sonra danışmağa çalışın.

## Etiraz etmirəm



Sinif rəhbəri:

– Uşaqlar, bu gün sizə yeni dərs kitabları paylayacağam.

Sonra Cəmilə dedi:

– Sənə kitab verməyəcəyəm. Çünki ötən ilki dərslikləri yaxşı saxlamamısan. Düzdür?

– Düzdür, müəllim!

– Etiraz etmirsən ki?

Cəmil öz sevincini gizlədə bilməyib dedi:

– Xeyr! Xeyr! Etiraz etmirəm!..

Uşaqlar, Cəmil nə üçün sevinirdi? Axı ona dərslik vermirdilər? Necə düşünürsiniz, müəllim Cəmilə kitab verəcəkmi?



**12** Cümlələri nümunədə olduğu kimi tamamlayın.

*Nümunə:* Mən şagirdəm, sən şagird deyilsən.

Mən əlaçı..., sən ... ... .
Mən evdə..., sən ... ... .
Mən çalışqan..., sən ... ... .
Mən nənəmə kömək edir..., sən ... ... ... .
Mən dərsliyimi təmiz saxla..., sən ... ... .



Sözdə hecalardan birinin o birinə nisbətən qüvvətli deyilməsi ***vurğu*** adlanır. Azərbaycan dilində vurğu çox zaman sözün sonuncu hecasının üzərinə düşür.

*Məsələn*: A - zər - bay - cán

**13** Sözləri hecalara bölərək, vurğusunu təyin edin. Sonra həmin sözləri dəftərinizə yazın.

Çiçək, məktəbli, dostluq, sakit, əlli, beşinci

Uşaqlar, siz ən çox nə vaxt havaya fikir verirsiniz? Bilirsinizmi, hava insan üçün necə vacibdir?!



# 18. HAVA

Bizim yaşamağımız üçün hava, su və ərzaq çox vacibdir. Biz hava ilə nəfəs alırıq. Hətta futbol topunun içində də ______ var. Topu mismarla deşsək, görərik ki, o yastılanır. Əgər Yer üzündə hava yoxa çıxsa, bütün canlılar məhv olar. Hava bəzən isti, bəzən də ______ olur. İlin fəsilləri dəyişdikcə biz bunu hiss edirik. Bütün insanlar sülh istəyirlər.

Lakin bəzi fabrik və zavodlar havanı çirkləndirir. Ona görə də şəhərlərdə, kəndlərdə çoxlu ağac əkmək lazımdır. Çünki bitkilər havanı daha tez və daha yaxşı təmizləyir. Bəzən yol kənarında meyvə ______ da əkirlər. Lakin bu ağacların meyvələrini yemək olmaz. Çünki yoldan keçən maşınların zəhərli tüstüsü, tozu onların üstünə hopur.

Biz hamımız çalışmalıyıq ki, nəfəs aldığımız hava çirklənməsin.

**1** Hansı cümlə mətnin məzmununa uyğun deyil?

A) Biz hava ilə nəfəs alırıq.
B) Bütün insanlar sülh istəyirlər.
C) Bəzən yol kənarında meyvə ağacları da əkirlər.

**2** Mətndə hansı suala cavab yoxdur?

A) Bitkilərin havanın təmizliyinə görə xeyri nədir?
B) Hansı meyvə ağacları yol kənarında əkilməlidir?
C) Bizim yaşamağımız üçün nə vacibdir?

**3** Mətndə ağ boşluqların yerinə hansı sözləri yazmaq olar?

A) soyuq, isti, əlavə
B) bitki, küləkli, budaqlar
C) hava, soyuq, ağaclar

**4** Mətndən tərkibində **"h"** səsi olan sözləri seçib yazın.

**5** 

"Hava" sözünün 2 mənada işləndiyini bilirsinizmi? Müəllimin köməyi ilə cavab tapmağa çalışın.




Sözləri hər iki mənada cümlədə işlədib, dəftərinizə yazın.

**6** Uşaqların dialoqunu parta yoldaşınızla oxuyun.



– Həsən, bu gün hava necədir?
– Bu gün hava küləklidir.
– Belə havada sən necə geyinirsən?
– Küləkli havada mütləq boynuma şərf bağlayıram.
– Bəs günəşli hava sənin xoşuna gəlir?
– Humay, mən ən çox yağışlı havanı sevirəm.



**7** Havanın əlamətlərini dəftərinizə yazın.




**Açar sözlər:** küləkli, maraqlı, yağışlı, böyük, günəşli, buludlu, bərk, isti

**8** İlin fəsillərinə uyğun olaraq havanı təsvir edin.

Qışda hava ..., ..., ..., ... olur.
Yazda hava ..., ..., ..., ... olur.
Yayda hava ..., ..., ..., ... olur.
Payızda hava ..., ..., ..., ... olur.

**9** Mətnin məzmununu danışmağı öyrənin.

Hamı havanın sakitləşməsini gözləyirdi. Bir neçə gün idi ki, hava bərk şaxta idi. Hər tərəf buz bağlamışdı. Heç kəs işə gedə bilmirdi. Məktəb yaxın olduğu üçün uşaqlar dərsə gedirdilər. Humay və Hikmət bir sinifdə oxuyurdular. Onlar həmişə məktəbə birlikdə gedirdilər. Həlimə də qonşuluqda yaşayırdı. Bu gün uşaqlar yenə birlikdə dərsə getməyi qərara aldılar. Hələ tez olduğu üçün uşaqlar yolda qartopu oynamağı da unutmadılar.

**10** Mətni necə adlandırmaq olar?

A) Sakit hava B) Şaxtalı gündə C) İlk dərs

**11** Sizcə, mətndə hansı fəsil təsvir edilir?

a) qış b) yaz c) yay d) payız

**12** Mətndə **"H"** səsinin çox işlənməsinə fikir verdinizmi? Həmin səsin işləndiyi sözləri seçib yazın.






**13** Şəkildə gördüyün əşyaların adlarını dəftərinizə yazın.



Elə sözlər var ki, vurğunun yerini dəyişdikdə sözün də mənası dəyişir.

*Məsələn*: almá
álma
gəlín
gə́lin

**14** Vurğusu dəyişməklə mənası dəyişən sözləri seçib dəftərinizə yazın, onları tərcümə edin.

Əkin, gəlmə, getmə, süzmə, dolma, qazma, gəlsə, gedin, sərin, qovurma, bağlama, bölmə, dostumla



## GƏLİN DOSTLUQ EDƏK

Uşaqlar, insanlarda çoxlu müsbət və mənfi keyfiyyətlər var. Müsbət keyfiyyətlər insana başucalığı gətirir. Hər bir insan çalışmalıdır ki, həmişə yaxşı keyfiyyətlərlə başqalarından seçilsin.

Həyatda ən səmimi hiss dostluqdur. Dostu çox olan insan heç vaxt darda qalmaz.

Babalarımız yaxşı deyiblər:

*Dost dar gündə tanınar.*

# 19. HACILEYLƏK VƏ SƏRÇƏ



Bir hacıleylək çinar ağacının budağında yuva qurmuşdu. Bir sərçə də həmin yuvanın altında məskən salmışdı. Bir gün hacıleylək sərçəyə dedi:

– Qonşu, sən mənim yuvamın ______ yaşayırsan. Mən olmasam, ______ səni və balalarını yandırar.

______ cavab verdi:

– Doğru deyirsən, qonşu. Sənin iri ______ və iri qanadların bizə çox kömək edir. Buna görə sənə çox ______ . Ancaq unutma ki, mən də olmasam qarışqalar ______ dırmaşıb səni və balalarını tələf edər. Mən bu kiçik dimdiyimlə onları bir-bir ______ yuxarı çıxmağa qoymuram.

*Abdulla Şaiq*

**1** Sizcə, hacıleylək sərçəyə etdiyi yaxşılığı deməklə düzgün hərəkət etdi? Nə üçün ağaca çıxan qarışqaları hacıleylək özü dənləmirdi? Axı onun da dimdiyi var (Bunu izah etməkdə müəllim Sizə kömək edər).

Hacıleylək və sərçəni dost hesab etmək olarmı?
Sizcə, əsl dost necə olmalıdır?

**2** Mətndəki boş xanaların yerinə hansı sözləri yazmaq olar?

günəş, dənləyib, ağaca, kölgəsində, sərçə, yuvan, təşəkkür edirəm

**3** Hansı atalar sözü mətnin məzmununa uyğundur?

a) Bu günün işini sabaha qoyma.
b) Dost dosta tən gərək, tən olmasa gen gərək.
c) Gedənin dalınca danışmazlar

**4** Mətndəki sərçəyə aid olanları seçib dəftərinizə yazın və cümlələrdə işlədin.

böyük, balaca, qorxaq, etibarlı, zəhmətkeş, qışqırır, cikkildəyir, yuvada yaşayır

Sərçə



**5** Cümlələri tamamlayın.

Mən, Sən, O — yuva — düzəldir ... . / düzəldir ... . / düzəl ... .

Biz, Siz, Onlar — yuva — düzəldir ... . / düzəldir ... . / düzəldir ... .

**6** Sağ tərəfdəki sütundan uyğun gələn sözü əlavə etməklə cümlələri tamamlayın.

| | |
|---|---|
| Köçəri quşlar | axtarırlar |
| Uşaqlar quşlara yuva | qayıtdılar |
| Quşlar isti ölkələrə | soyuyacaq |
| Sərçələr yerdə dən | köçürlər |
| Bir azdan havalar | düzəldirlər |



**7**



Uşaqlar heyvanlarla dostluq etməyi çox sevirlər. Heyvanlar çox etibarlı dostlardır.

## Etibarlı dost

Əvəzin Toplan adlı ağıllı bir iti vardı. Onlar möhkəm dost olmuşdular. Hətta məktəbə gedəndə Toplan onun çantasını aparırdı.

Dərs ilinin ilk günü idi. Əvəz çantasını götürüb həyətə düşdü. Toplan da yanında idi. Qonşuluqda yaşayan qoca nənə Əvəzdən soruşdu:

– Oğlum, neçənci sinifdə oxuyursan?

Əvəz çaşıb qaldı. O heç hansı sinifdə oxuyacağını da bilmirdi. Bu zaman Toplan təsadüfən üç dəfə hürdü. Əvəz sevincək dilləndi:

– Nənə, mən bu il üçüncü sinifdə oxuyacağam.

Sonra isə Toplanın başını tumarladı.



**8** Sizcə, Əvəz necə şagirddir? O, dərslərini necə oxuyur? Uşaqlar, siz necə düşünürsünüz, Toplan ağıllıdır?

**9** **“Əvəz”** adı “**ə**” spesifik səsi ilə başlanır. Bu səslə başlanan oğlan adları yaza bilərsinizmi?

**10** **“G”** və **“C”** hərfləri ilə başlanan azərbaycanlı qız adlarını dəftərinizə yazın.

*Məsələn:* Cəmilə

**11**



**H** yoxsa **X**

...eyva, ...oruz, ...alq, ...əyət, ...ava, ...urma, ...iyar, ...əkim, ...alva, ...ami, ...örmət



Dostlar, indi mən sizə dostluq mövzusunda bir Azərbaycan xalq əfsanəsini danışacağam.

## 20. LƏPİRLƏR



Qədim zamanlarda Nardaran qalasının yaxınlığında Piri baba və onun nəvəsi Əhməd yaşayırdı. Piri baba bağban idi.

Bir gün səhər baba və nəvə qumun üstündə bir neçə insan ləpiri gördülər. Onlar ləpirlərin izi ilə bir qayanın yanına çatdılar. Burada yalnız bir insan ləpiri qalmışdı. Baba ləpirlərin hara gedib çıxdığını soruşdu. Məlum oldu ki, ləpirlərdən biri var-dövlətin, o biri xoşbəxtliyin, digəri dostluğun ardınca gedirmiş.

Əhməd cavab verdi:

– Baba, gəl var-dövlətin, ya da xoşbəxtliyin yolu ilə gedək.

Piri baba dedi:

– Bala, gəl biz dostluğun yolu ilə gedək. Bir gün var-dövlət, xoşbəxtlik əldən gedə bilər. Dostluq isə hər zaman sənə lazım olar. Əsl dost səni tək qoymaz.

Əhməd dostluğun yolu ilə getdi. O istəyirdi ki, çoxlu dostu olsun.

*Süleyman Rəhimovdan*

**1** Siz Piri babanın yerində olsaydınız, **“dostluğun”** yolu ilə getməyə Əhmədi necə inandırardınız?

Bəs siz Əhmədin yerində olsaydınız nəyi götürərdiniz?
Sizin dostunuz var? Dostunuzun hansı xüsusiyyətləri xoşunuza gəlir?
Dəftərinizə dostunuz haqqında 5-6 cümlə yazın.

**2** Ananız sizə tez-tez necə olmağı xatırladır? Həmin sözləri seçib yazın:

ağıllı, səliqəli, nadinc, mehriban, kobud, səmimi, yalançı, düzgün, etibarlı, qorxaq, igid

**3** Buraxılmış hərfləri əlavə etməklə köçürün.

a...ac, zən..., əs...i, g...yərçin, məş...ələ, pələn..., p...ncərə, g...l, çiç...k, g...nəş, ma...aza, i...id, s...lh, zo...al

**4** Mənaca yaxın sözləri seçib yazın

səmimi, səliqəli, ağıllı, çalışqan, güclü, şad, mehriban, təmizkar, düşüncəli, bacarıqlı, qüvvətli, şən

**5** A) Yalnız saitlərdən ibarət cərgə hansıdır?

a) e, a, l, y　　b) u, t, e, x　　c) ö, u, ə, i

B) Hansı söz yazıldığı kimi tələffüz olunur?

a) altı　　b) səkkiz　　c) dörd

C) Hansı sıradakı bütün sözlər **nə?** sualına cavab verir?

a) dövlət, xoşbəxtlik, bağban
b) dəniz, qaya, nəvə
c) torpaq, ləpir, dostluq

D) Hansı sözdə saitlərin sayı çoxdur?

a) gəmi　　b) saat　　c) ütü

**6** Atalar sözünün mənasını izah edə bilərsinizmi? Dostluğa aid hansı atalar sözlərini bilirsiniz? Bildiyiniz atalar sözlərini dəftərinizə yazın.

***Atalar sözü***

*Dost min isə azdır, düşmən bir isə çoxdur.*

7 

Uşaqlar, heç bilirsiniz, dadlı krossvord necə olur? Gəlin birlikdə oxuyaq.

## Dadlı krossvord



Nənə sobada cürbəcür dadlı bişmişlər hazırlayırdı. Nəvəsi Güllü ona kömək etmirdi. Çünki çox şeyin adını bilmirdi.

– Güllü, ələyi gətir mənə!

– Axı bilmirəm ələk nədir!

– Güllü, həvəngdəstəni gətir!

– Nənə, həvəngdəstə nədir?

Nənə hər dəfə Güllünü öyrədirdi, Güllü isə unudurdu. Nənə qərara gəldi ki, hər şeyin adını Güllüyə belə öyrətsin. Dadlı bir şey bişirdi, yığdı boşqaba, üstünü örtdü və Gullüyə dedi:

– Əşyaların adlarını tapsan, nə bişirdiyimi biləcəksən, bişmişdən yeyəcəksən.

Beləliklə, Güllü əşyaların adlarını yadda saxlamağa çalışdı.

8 

Uşaqlar, siz də şəkildəkilərin adlarını tapsanız, yaşıl sutunda alınan sözdən nənənin nə bişirdiyini biləcəksiniz.




1 

2 

3 

4 

5 

6 

**9** Verilmiş sözlərdən cümlə qurun.

həyətdə, çoxlu, əkdilər, ağac, uşaqlar.

insanlara, xeyir, bitkilər, verir.

sevirəm, mən, çox, çiçəkləri, gülləri.

**10** Aşağıdakı açar sözlərdən istifadə etməklə cümlələri düzgün şəkildə oxuyun və mətni dəftərinizə köçürün.

Uşaqlar həyətdə ağlayırdılar. Birdən bərk külək yağmağa başladı. Hərə başqasının evinə qaçdı. Təkcə Günay ağacda qaldı. Çünki onun anası mağazaya danışmışdı. Gəray bunu görüb irəli qayıtdı. Günayı öz oyuncaqlarına apardı. Günayın anası Gözəl xala qayıdanda Gəraya çox tənqid etdi.

oynayırdılar, yağış, öz, həyətdə, getmişdi, geri, evlərinə, təşəkkür

**11** Verilmiş sözlərə yaxınmənalı sözlər tapıb dəftərinizə yazın.

cürbəcür –
dadlı –
unutmaq –
qərara gəlmək –
bilmək –

**12** Verilmiş sözləri hecalara bölərək yazın.

bəstəkar | alim | rəssam | həkim | şagird | kitabxana | futbolçu



Uşaqlar, heç bilirsiniz qonşumuz Tahirin başına nə gəlib? Mən danışım, siz qulaq asın. Siz də kiçik dostlarınıza danışarsınız.

# 21. PEŞMANÇILIQ

Tahir yayda kəndə – xalasıgilə qonaq getmişdi. Kənd həyatı onun çox xoşuna gəlirdi. O, uşaqlarla birlikdə meyvə dərir, çayda çimir, kəpənək tuturdu.



Bir gün Tahir bağda gəzərkən qonşunun bağından öz bağlarına tərəf əyilən armud ağacını gördü. O, tez hasara dırmaşdı. Budaqdan sapsarı armudları dərib qoynuna doldurdu. Elə bu an həyət qapısı döyüldü.

Tahir qapını açan kimi qonşuları Murad babanı gördü. O, əlindəki armud dolu səbəti Tahirə uzadıb dedi:

– Bala, dünən bağdan armud dərmişdim. Bu da sizin payınız.

Tahir qızardı. O bilmədi nə etsin. Səbəti babadan aldı, hətta “çox sağ ol” deməyi də unutdu. Tahir tutduğu işdən çox peşman oldu.

**1** Suallara cavab verin.

1. Tahirin səhvi nədə idi?
2. Siz Tahirin yerində olsaydınız, necə hərəkət edərdiniz?`
3. Sizcə, Murad baba Tahirin dərdiyi armudları görmüşdü?

**2** *Bəyənirdi, bir dəfə, çıxdı, köynəyinin altına, bu vaxt, yığılmış, yadından çıxardı – kimi sözləri mətndəki hansı sözlərlə əvəz etmək olar?*

**3** Suallara cavab verərək köçürün.

| | |
|---|---|
| Uşaq necədir? ... / ... / ... | Şagird necədir? ... / ... / ... |
| Ana necədir? ... / ... / ... | Nənə necədir? ... / ... / ... |
| Müəllim necədir? ... / ... / ... | Ata necədir? ... / ... / ... |

**4** Şəkildə gördüyünüz hər meyvənin əlamətlərini qarşısında yazmaqla dəftərinizə köçürün.



alma



armud



nar



üzüm



limon



ərik

**İstifadə etmək üçün sözlər:** *yumru, qırmızı, sarı, şirin, uzun, ətirli, dənli, turş, ağ, vitaminli, göy, qara* (Özünüzdən əlavələr edə bilərsiniz).

**5*** Siz verilmiş mətni tamamlaya bilərsinizmi?

Payızın gözəl, günəşli günlərindən biri idi. Səma təmiz, buludsuz görünürdü. Belə bir gündə məktəbli dostum Azərlə evimizin yanındakı parka gəzməyə çıxmışdıq. .....

Yazdığınız mətnə uyğun ad qoyun.



Uşaqlar, siz sözləri bir sətirdən digərinə keçirəndə çətinlik çəkirsiniz. Ona görə də bilməlisiniz ki,

Sözləri tərkibindəki sait səslərin sayına görə hissələrə bölmək olar. Bu hissələr **heca** adlanır.

Sözlərdə neçə sait səs varsa, o qədər də heca olur. Hər hecada bir sait səs olur. Sözlərin çoxu sətirdən-sətrə hecalarla keçirilir.

*Məsələn:* ki - tab, mək - təb - li, si - nif

**6**



Uşaqlar, mən sizə suallar versəm, siz həmin suallara əsasən kiçik bir mətn qura bilərsinizmi?

Sənin dostun var? Onun adı nədir?
Siz harada tanış olmuşsunuz?
Dostunun xarici görünüşü necədir?
Onun xasiyyəti necədir?
O sənə nə zaman kömək edib? Bəs sən?
Əsl dost necə olmalıdır?

**8*** Şeiri əzbərləyin və mənasını izah edin.



## Alma ağacı

Bir ağac çiçəklədi,
Babam dedi: – Almadı.
Möhkəm durdu budaqlar,
Vaxtsız çiçək salmadı.

Gözlədik, əzizlədik,
Kimsə onu yolmadı.
Yetişəndə meyvəsi,
Payladı bir-bir bizə,
Bıy, özünə qalmadı..

*Məmməd Aslan*

**9** Müəllimin köməyi ilə şeirin məzmununu öz sözlərinizlə izah edə bilərsinizmi?

1 Sən bağban olsaydın, hansı ağacları əkərdin?
2. Bəs bağçada hansı gülləri əkərdin?

**10** Birhecalı söz hansıdır?

a) alma b) payladı c) bir

**11** Hansı sözü hecalara ayırmaq olmur?

a) tərs b) duru c) dələ

**12** Hansı doğru deyil?

a) Bir hecada yalnız bir sait olur.
b) Hecada sait olmur.
c) Sözdə neçə sait olursa, o qədər də heca olur.

**13** Hansı söz hecalara düzgün ayrılıb?

a) bi - çin - çi b) iy - irm - i c) şam - am - a

**14** Uşaqlar, siz də dialoqda iştirak edin.



– Nigar, sizin bağınız var?
– Bəli, biz hər yay bağda dincəlirik.
– Bağınızda hansı ağaclar əkilib?
– Bağımızda ərik, alma, tut, əncir, üzüm, albalı ağacları əkilib.
– Bəs bu ağaclara kim qulluq edir?
– Atam hər bazar günü bağa gedib ağaclara qulluq edir.
– Bəs sən özün heç nə etmirsən?



Bilirsinizmi ki, dostluğu heç nə sındıra bilməz? Bax, bu xalq nağılında olduğu kimi.

# 22. YEDDİ NAR ÇUBUĞI

(ixtisarla)



Bir atanın yeddi oğlu var idi. Onlar çox mehriban dolanırdılar. Həmişə birlikdə ova gedirdilər. Yırtıcı heyvanların da onlara gücü çatmırdı. Çünki həmişə bir yerdə olurdular. Düşmənlər də onlara bata bilmirdilər.

İllər keçdi. Oğlanlar evləndilər. Ayrı yaşamağa başladılar. Artıq bir-birlərinin evinə də az-az gedib-gəlirdilər. Düşmənlər bunu görüb onlara tək-tək hücum etdilər. Evlərini taladılar. Ataları işi belə görüb, oğlanlarını yanına çağırdı. Gələndə oğlanlarından hərəsinin bir nar çubuğu gətirmələrini xahiş etdi. Ata onların gətirdikləri nar çubuğundan bir dəstə bağladı. Sonra çubuq dəstəsini onlara verib dedi:

– Oğlanlarım, gücünüzü sınayın, görüm, bunu hansınız sındıra bilərsiniz?

Oğlanlardan heç biri çubuq dəstəsini sındıra bilmədi.

Bu dəfə ata çubuqları bir-bir oğlanlarına verib dedi:

– İndi bu çubuqları qırın.

Oğlanlar asanlıqla çubuqları qırdılar. Onda ata dedi:

– Balalarım, siz də bu çubuqlar kimisiniz. Nə qədər ki, birlikdəsiniz, sizi heç kim sındıra bilməz. Ayrılıqda isə düşmənlər sizi qıra bilərlər. Çünki güc birlikdədir. Ona görə də siz həmişə birlikdə olmalısınız.

*(Azərbaycan xalq nağılı)*

**1** Mətni oxuyun. Məzmununu danışmağı öyrənin. Mətnə aid suallar tərtib edib, dəftərinizə yazın.

**2** Mətnə başqa hansı adı vermək olar?

A) Güc birlikdədir. B) İgid ölər, adı qalar. C) Yaxşılıq baş ucaldar.

**3** Mətndə hansı suala cavab yoxdur?

a) Qardaşlar əvvəl necə yaşayırdılar?
b) Onlar hansı kənddə olurdular?
c) Necə oldu ki, düşmənlər qardaşları qıra bildilər?

**4** Sözləri yerinə qoymaqla köçürün (Mətndən istifadə edin).

1. Ata ... çubuqlarından bir dəstə bağladı. 2. Qardaşlar həmişə birlikdə ... gedərdilər. 3. Atası ... yanına çağırdı. 4. Oğlanlar ... dəstəsini sındıra bilmirdilər. 5. Ayrılıqda ... sizi qıra bilərlər.

**5** "Güc birlikdədir" ifadəsini necə başa düşürsiniz? Sizin sinfinizdəki uşaqlar arasında birlik varmı? Bu barədə düşündüklərinizi dəftərinizə yazın.

**6** Verilmiş sözlərə əksmənalı sözlər tapa bilərsinizmi?

| | | |
|---|---|---|
| mehriban – | güclü – | asanlıqla – |
| həmişə – | düşmən – | ayrılıqda – |

**7** Sözləri hecalara ayıraraq köçürün.

çubuq | asanlıqla | oğlanlar | gücünüzü | evlərini | ata | birlikdədir | dost

**8** Sözləri əvvəlcə mənalı hissələrinə, sonra hecalara bölüb yazın:

***Nümunə:*** kitablarımız    kitab - larımız    ki - tab - la - rı - mız

**Sözlər:** *oğlanlardan, dəstəsini, çubuğundan, gətirdilər, gücünüzü*

**9** Şeiri əzbərləyin.

## Dostum

Mənim bir dostum var ki,
Ayrılmır ondan ürək.
Söhbət edib görüşək
Dostumla hər gün gərək.
Maraqlı söhbətləri
Necə də şirin olur.
Açır Yerin sirrini,
Öyrədir ulduzları.
Təsvir edir payızı,
Yayı, qışı, baharı...
Kim sevməz belə dostu –
Ki, var min bir hikməti.
Kimin olmaz kitaba
Hörməti, məhəbbəti?




*Mirmehdi Seyidzadə*

**10** Suallara cavab verməyə çalışın.

1. Şeirdə hansı dostdan danışılır?
2. Sizin də belə dostunuz var?
3. Belə dostlardan nəyi öyrənmək olar?

**11** Əgər özünüzə dost seçməli olsanız, şəkildəkilərdən hansını seçərdiniz?



**12** Sözləri elə işlədin ki, sonundakı samit dəyişsin.

dostluq, yoldaşlıq, maraq, çubuq, ayrılıq, birlik, yaxşılıq, çətinlik, təklik.

***Nümunə:*** dostluq - dostluğa, dostluğu, dostluğun

**13** Yoldaşlarınızla dialoqu oxuyun.



– Salam, Əli!

– Salam, Gülşən!

– Əli, necəsən? Hara gedirsən?

– Sağ ol, yaxşıyam. Dostumgilə gedirəm.

– Nə yaxşı. Sənin dostun kimdir ki?

– Mənim dostum Həsəndir. O, çox yaxşı oğlandır.

– Sən nə vaxtdan onunla dostluq edirsən?

– Biz 1-ci sinifdən dostuq. Demək olar ki, bütün günümüzü bir yerdə keçiririk.

– Mənim isə dostum yoxdur.Heç kim mənimlə dostluq etmək istəmir.

– Dostun olması üçün gərək özün də kiminsə qayğısını çəkəsən. Dostunu sevəsən. Ona hörmət edəsən.

– Demək, mən özüm dost tapa bilərəm?

– Əlbəttə, sən özün çalışsan, kiminləsə dostluq edə bilərsən.

– Səncə, dostluq etmək üçün mən necə olmalıyam?

– Dostluqda sədaqətli olmaq, həmişə doğru danışmaq lazımdır.

– Mən mütləq özümə dost tapacağam.



**Diqqət edin!**

Bəzən biz kiməsə qonaq gedəndə belə ifadələr işlədirik:

*nənəmgilə, dayımgilə, xalamgilə*



## YAXŞI İNSAN OLAQ

# 23. SƏBƏT ƏHVALATI



Bəhram baba yetişmiş meyvələrdən ən yaxşılarını dərib balaca səbətə yığar, nəvəsi Elbəy üçün saxlayardı.

Bir gün Elbəy babasının yanına gəldi. O, şaftalı ağacının yanında bir səbət gördü. Səbəti şaftalı ilə doldurdu və meyvələri toyuqlara atmağa başladı.

Sonra o, babasının yanına qayıtdı və yenə də şaftalı yığmaq istədi. Baba dedi:

– Əlbəttə, yığa bilərsən. Amma səbət mənə də lazımdır. Özün üçün səbət toxu.

Elbəy bir qədər çubuq yığdı. Ancaq nə qədər çalışdısa, səbət toxuya bilmədi. Köməyə əmisi oğlunu çağırdı. Əmisi oğlu onun üçün səbət toxudu. Baba bu səbəti bəyənmədi. Çubuqları çıxarıb atdı.

Bu, bir neçə dəfə təkrar olundu. Almalar ağacda qızarmışdı.

Nəhayət, Elbəy bir qədər çalışdı və səbəti özü toxudu. Baba yenə də səbəti sökmək istəyəndə Elbəy xahiş etdi:

– Baba, qoy qalsın. Axı mən onunla səhərdən əlləşirəm.

Baba gülərək dedi:

– Görürsən, adam öz zəhməti ilə düzəltdiyini qiymətləndirir. Mən inanıram ki, babanın zəhmətlə becərdiyi məhsulu daha toyuqlara atmazsan.

Elbəy hər şeyi başa düşdü və utandı.

*Cəmil Əlibəyov*

**1** Suallara cavab verin:

1. Sizcə, baba səbəti, həqiqətən, bəyənmirdi?
2. Elbəy nə üçün babanın əkdiyi şaftalıları qiymətləndirmirdi?
3. O nə üçün utandı?

**2** Mətndə hansı cümlə yerində işlənməmişdir?

**3** Atalar sözlərindən hansı mətnə uyğundur?

**Atalar sözləri**

*1. Zəhmət çəkməyən rahatlığın qədrini bilməz.*
*2. Doğru yolla gedən yorulmaz.*
*3. Bilməmək eyib deyil, soruşmamaq eyibdir.*

**4** Verilmiş ifadələri təhsil aldığınız dilə tərcümə edib dəftərinizə yazın.

yetişmiş meyvələr
ağacın budağı
kiçik səbət
çox çalışmaq
ağıllı oğlan
zəhmətsevər oğlan
səbət toxumaq

**5** 

Dialoqda siz də iştirak edin. Onu davam etdirə bilərsiniz? Müəlliminiz sizə kömək edəcək.



– Nərmin, hekayə sənin xoşuna gəldi?
– Bəli, Arif, xoşuma gəldi.
– Bəs sənin necə?
– Mənim də xoşuma gəldi. Ancaq ...
– Ancaq ... nə?
– Mənə elə gəlir ki, Elbəy düşünmədən səhvə yol verib.
– Niyə?
– Axı Elbəyin ağac əkərkən çəkilən zəhmətdən xəbəri yoxdur. O bilmir ki, bol məhsul götürmək üçün nə qədər zəhmət tələb olunur.
– Arif, mən səni başa düşmürəm. Məgər sən bilmirsən ki, hər bir iş ağır zəhmət tələb edir?
– Bəlkə Elbəyin yadından çıxıb?
– Arif, əgər Elbəy dərslərini yaxşı oxusaydı, hər şey yadında qalardı. Axı məktəbdə bizə bağbanların, əkinçilərin zəhmətindən danışıblar.
– Düzdür, Nərmin, səninlə razıyam.

**6** Cümlələri təhsil aldığınız dilə dəqiq tərcümə edin.

a) Bağçada əlvan güllər çiçək açdı.
b) Bağçamız əlvan güllərlə doludur.
c) Yazda bağçada əlvan güllər açır.

**7**  Uşaqlar, siz süd ağacı haqqında eşitmişsiniz? Oxuduğunuzu valideynlərinizə də danışın.

## Süd ağacı



Cənubi Amerika meşələrində süd verən ağaclar da var. Onlar belə də adlanır: süd ağacı.

Ağacın hər hansı yerini kəsdikdə oradan gün ərzində 2-4 litr süd axır. Bu süd həm tərkibinə, həm də tamına görə inək südünə çox bənzəyir. Yerli əhali bu südü içməyi çox xoşlayır.

*("Ayna" Uşaq Ensiklopediyasından)*

**8** Ananız evdə süddən hansı yeməkləri hazırlayır? Siz hansıları xoşlayırsınız? Adlarını dəftərinizə yazın və cümlələrdə işlədin.

**9** **"Dadına görə"** ifadəsini mətndə hansı sözlə əvəz etmək olar?
**"Sevir"** sözünü hansı sözlə əvəz etmək olar?
**"Oxşayır"** sözünü hansı sözlə əvəz etmək olar?

**10** Nöqtələrin yerinə hansı sözü əlavə etmək olar?

. . . / . . . / . . . / . . . / . . . / . . . — ağac — əkirəm / əkirsən / əkir / əkirik / əkirsiniz / əkirlər

Mən / Sən / O / Biz / Siz / Onlar — ağacları — əkir. . . / əkir. . . / əkir. . . / əkir. . . / əkir. . . / əkir. . .

**11** Sualların yerinə uyğun sözləri yazaraq köçürün.

Elbəy nədən? nə? nə edir?
Baba kimə? nəyi? nə edir?
Ağaclarda nə qədər? nə? nə edib?
Mən nəyi? nə qədər? nə edirəm?

**12** Verilmiş sözlərdən cümlə qurun və yazın.

ağaclardan, şaftalı, çoxlu, dərdilər, uşaqlar.

qardaşım, əkdi, güllər, qırmızı, bağımızda.

verdi, baba, uşaqlara, məsləhətlər, ağıllı.

**13** Buraxılmış hərfləri əlavə edərək köçürün.

ağa..., çəki..., dir...ik, yarpa..., zə...bil, va...zal, st...kan, m...barək, m...ntyor, m...əllim

**14** Aşağıdakı sözlərin müxtəlif mənalarını yazın.

gül < ____ / ____

bel < ____ / ____

yağ < ____ / ____



Uşaqlar, Cəmiləni tanıyırsınız?

# 24. PİS ADƏT

Cəmilə balaca, qəşəng bir qızdı. Ancaq pis adəti vardı. Həyətdə iki-üç adam söhbət edəndə Cəmilə ortaya girib, maraqla onların söhbətlərini dinləyərdi.

Bir dəfə Cəmilə uşaqlarla həyətdə oynayıb yoruldu. Evə gəldi. Otaqdan ata-anasının səsini eşitdi. Onlar söhbət edirdilər.

“Görəsən, nədən danışırlar?” – deyə Cəmilə fikirləşdi. İçəri girib pərdənin dalında gizləndi. Qulağını pərdəyə söykədi ki, deyilən sözləri aydın eşitsin.

Atası dərindən ah çəkdi:

– Cəmilənin bir qulağı yaman uzanıb. Uşaq lap eybəcər olub.

Cəmilə tez əlini qulağına atdı. Ona elə gəldi ki, doğrudan da, bir qulağı uzundur.

Atası dedi:

– Bilirsən, bir qız var idi, başqalarının söhbətinə qulaq asmaqdan onun da qulağı belə uzanmışdı. Ona qulağı uzun qız deyirdilər.

Cəmilə çox qorxdu. Tez pərdəni araladı. Gördü ki, atasıyla anası gülürlər.

Cəmilə pərdənin dalından çıxdı. Hönkürtü ilə ağlamağa başladı. Yox! Cəmilənin qulağı uzanmamışdı. Amma, deyəsən, o, ata-anasının sözünün əsl mənasını başa düşmüşdü.

*(Həbibə)*

**1** Suallara cavab verin:

1. Cəmilə necə qız idi?
2. Onun adəti nə idi?
3. Cəmilə ata-anasını dinləyən zaman nə eşitdi?
4. Cəmilə nə etdı?
5. Sizcə, Cəmilə öz səhvini başa düşdü?

**2** Həftənin günlərini sadalaya bilərsinizmi? Həmin sözləri dəftərinizə yazın və cümlədə işlədin.

*Məsələn:* ***İstirahət günü*** Mən dostlarımla görüşəcəyəm.

**3** Verilmiş sözləri bir sözlə əvəz edə bilərsinizmi? Özünüz də əlavələr edin.

yalan danışan adam –
hər şeyi xəbər verən adam –
orta məktəbdə oxuyan –
heç nədən qorxmayan adam –
xəstələri müalicə edən –
uşaqlara bilik verən –
ancaq ev işləri ilə məşğul olan qadın –
dənizdən neft çıxaran –

**4** Cümlələri oxuyun və dəftərinizə yazın.

**Yadda saxlayın !**

- Yaşlıların dediklərinə əməl edin.
- Böyüklər olan yerə icazəsiz girməyin.
- Kimsənin qəlbini qırmayın.
- Böyüklərə hörmət, kiçiklərə məhəbbət göstərin.
- Heç kimin səhvini adam içərisində üzünə deməyin.

**5** Verilmiş sözlərin içərisindən müsbət keyfiyyətləri sağ sütunda, mənfi keyfiyyətləri sol sütunda yazın.

mərd, qorxmaz, səliqəsiz, təmizkar, düz danışan, yalançı, xoşxasiyyət, gülərüz, acıdil, kobud, tənbəl, pinti, cəsur, bacarıqlı, qorxaq

| qorxaq | mərd |
| --- | --- |

6  Uşaqlar, heç bilirsiniz, bir dəfə atası Kamilə nə etdi?

## Kamilin səhvi

Qonaqlar gedəndən sonra atası Kamilə dedi:
– Sənə min dəfə demişəm, adam yanında əlini cibinə qoyma.

Kamil başını aşağı salıb otaqdan çıxdı.

Yenə də bir dəfə evə qonaqlar gəlmişdi. Kamil yaxası açıq köynəkdə, əlləri cibində dayanmışdı. Atası xəcalət çəkirdi.

Qonaqlar gedəndən sonra atası istədi ki, Kamili danlasın. Lakin o, bunu etmədi. Kamil yatandan sonra onun ciblərini tikdi.

Səhər Kamil şalvarını geyəndə əlini cibinə salmaq istədi, mümkün olmadı. O, atasının tapşırığını xatırladı və utandı.

*(N.Süleymanov)*

7 Suallara cavab verin:

1. Uşaqlar, Kamil nəyi düzgün etməmişdi?
2. Atası nə üçün xəcalət çəkirdi?
3. Kamil qonaqların qarşısında özünü necə aparmalı idi?

8  Uşaqlar, mənim də qonaqların yanında özümü necə aparacağım hərdən yadımdan çıxır. Bəlkə, yadıma salasınız. Düşündüklərinizi dəftərinizə yazın və müəlliminizə göstərin.

9 Şəkillərə baxıb mətn qurun.

  

10 Səhv yazılan sözü düzəldin.

a) möykəm b) səliqəli c) məharət

11 Hansı sözləri hecalara ayırmaq olmur?

1) sarı 2) div 3) sağ 4) bank 5) qapı

a) 1, 2, 4 b) 2, 3, 4 c) 1, 4, 5

12 Hansı sözdə **“o”** saiti **“a”** kimi tələffüz olunur?

a) dovşan b) kolbasa c) traktor

**13** **Hansı bənddə “Xəbərçi”** sözü hecalara düzgün bölünmüşdür?

a) xə - bər - çi  b) xəb - ər - çi  c) xə - bə - rçi

**14** Hansı sözdə **“t”** samiti **“d”** kimi oxunur?

a) diqqət  b) asta  c) təbiət

**15** **“Otaq”** sözünə hansı şəkilçini artırdıqda **“q”** samiti **“ğ”** ilə əvəz olunur?

a) – da  b) – dan  c) – ın

**16** Aşağıdakı sözlərdən neçəsi hərəkət bildirir? Onları seçib dəftərinizə yazın.

velosiped, at, gəmi, üzür, qaçır, külək, oynadı

a) dördü  b) üçü  c) ikisi

**17** *Şeiri əzbərləyin.

Anasının aldığı
Kürkü geyib əyninə,
Çıxıb həyətlərinə
Nərmin oynayır yenə.

Bu vaxt qonşunun qızı
Pərvin yanaşır ona.
Görür bu kürk doğrudan
Yaman yaraşır ona.

Paxıllıq edib deyir:
– Geyinmə bu kürkü sən.
– Niyə?
– Qıraqdan baxan
Elə bilər tülküsən.

Uşaqlar, sizcə, Pərvin düzgün hərəkət etdi?
* Bəs o, təzə kürk geyinən Nərminə nə deməli idi?

**14** Bildiyiniz nəzakətli sözlərdən bir neçəsini dəftərinizə yazın. Bu işdə müəlliminiz sizə kömək edər.

## 25. BALACA





Rəhim evdə ən kiçik uşaq idi. Onun böyük qardaşı təyyarəçi idi. Hamı onu tərifləyirdi. Rəhim qardaşından xahiş etdi:

– Mənə də təyyarə sürməyi öyrət.

Qardaşı gülüb dedi:

– Hələ balacasan, böyü, sonra.

Rəhimin bacısı diş həkimi idi. O, bacısına dedi:

– Məni də özünlə apar. Sənə kömək edərəm.

Bacısı gülüb dedi:

– Böyü, sonra.

Rəhim küsüb küçəyə çıxdı. Evlərinin yanında ağacın altındakı skamyada oturdu. Bir qoca kişi gəlib onun yanında oturdu. O, Rəhimdən soruşdu:

– Səni kim incidib, balaca?

Rəhim dedi:

– Eh, balaca olmaqdan lap təngə gəlmişəm.

– Demək, sən böyümək istəyirsən? – qoca soruşdu.

Elə bu zaman Rəhimin başına qəribə bir hadisə gəldi. O, sürətlə böyüməyə başladı.

– Belə tez böyümək xoşuna gəlirmi? – deyə qoca soruşdu.

– Əlbəttə, baba, çox sağ ol! Mən indi təyyarəçilik məktəbinə gedəcəyəm.

– Səni ora götürməzlər. Sən axı məktəbi bitirməmisən.

– Mən hələ üçüncü sinifdə oxuyuram. Bəs mən nə işlə məşğul olum?

– Oğul, bu, mənasız böyüməkdir. İndi sən yaxşı oxumalısan ki, biliyin olsun. Elmsiz, savadsız böyüməyin nə xeyri var?

Rəhim bir anda kiçilib əvvəlki kimi balaca oğlan oldu.

*Namiq Abdullayevdən*



Uşaqlar, sizcə Rəhim düzgün fikirləşir?

**1** Suallara cavab verin:

– O, nə üçün böyümək istəyir?

– Məgər təhsil almadan təyyarəçi olmaq olar?

– Rəhimi nə üçün hamı “balaca” deyə çağırır?

– Sizcə, baba Rəhimi, həqiqətən də, böyütdü, sonra kiçiltdi?

– Sən də tez böyümək istərdin?

**2** Mətndə hansı peşələrin adları çəkilir? Daha hansı peşə adları bilirsən?

**3** Aşağıda verilmiş hansı sözlərə **– çı, – çi, – çu, – çü** əlavə etməklə peşə adı bildirən söz düzəltmək olar?

müəllim, üzüm, həkim, pambıq, neft, mühəndis, tərbiyə, bağban, əkin, rəssam, qapı, qaşıq, futbol, rabitə, traktor, bəstəkar, kabab, kimya, aşpaz, direktor, balıq

**4** Mətndən sual bildirən cümlələri seçib dəftərinizə yazın. Neçə cümlə yaza bildiniz?

**5** Təhsil aldığınız dilə tərcümə edərək yazın.

ən kiçik oğlan
böyük qardaş
böyük bacı

təyyarəçilər məktəbi
maraqlı hadisə
məktəbi bitirmədən

**6** Bir-birilə əksmənalı sözləri seçib cümlələrdə işlədin. Cümlələri dəftərinizə yazın.

| | |
|---|---|
| altında | qabaqda |
| üstündə | arxada |
| yanında | yuxarıda |
| kənarda | aşağıda |

**7** Şeiri əzbərləyin.



## Böyük olsam ...

– Böyük olsam mən,
Neylərəm bilsən?
– Neylərsən, balam?
– Hər şeyi verib,
Oyuncaq allam.

*Nəriman Həsənzadə*

– Bəs siz böyük olsaydınız, nə edərdiniz? Bu suala 2-3 cümlə ilə cavab verə bilərsinizmi? Cavabları dəftərinizə yazın.

**8** 

Uşaqlar, bütün balacalar tez böyümək istəyirlər ki, Vətənimizin gözəlləşməsində, quruculuq işlərində iştirak etsinlər.

Axı bu Vətən sizindir, balaca dostlar!

## Hamısı mənimdir

– Bu dağ kimindir, baba?
Havası nə sərindir.
– Sənin, bala, sənindir.
– Bu çay kimindir, baba?
Nə gurdur, nə dərindir?
– Qəşəng balam, sənindir.
– Meşə kimindir, baba?
– Sənindir ey, sənindir.
– Bəs bu, bəs o, bəs onlar
Ah nə gözəl yerlər var!
– Ay mənim göyçək balam,
Yanağı çiçək balam,
Nə görürsən sən indi,
Bax hamısı sənindir.



*Məmməd Aslan*

**9** 1. Nəvə gördüklərinin kimin olduğunu babasından soruşur. Bəs o daha nələrin adlarını göstərə bilər?

2. Baba **“sənindir”** deməklə nəyi anlatmaq istəyir? Məgər hamısı təkcə onun nəvəsinindir?

3. Əgər hər şey sizindirsə, bütün bunları necə qorumalısınız?

**10** Verilmiş şeirdə əlamət bildirən sözləri seçib dəftərinizə yazın və cümlədə işlədin.

**11** Cümlələr qurun və təhsil aldığınız dilə tərcümə edin.

dağlar
dərələr
meşələr — mənim . . .
çaylar
göllər

gözəl — meşə, dağ, dərə, çay, göl — . . .

mənim — dağlar ...
dərələr ...
meşələr ...
çaylar ...
göllər ...

**12** Hansı sözlər yerində işlənməmişdir? Açar sözlərdən istifadə edərək cümlələr düzəldin və yazın.

Böyük Samir babası ilə evə getmişdi. Babası onu meşədəki göllərlə tanış edirdi. O, ağacların heyvanların həyatındakı rolundan danışırdı. Samir danışdı ki, ağaclar insanlara ziyan verir.

**Açar sözlər:** *balaca, xeyir, meşəyə, insanların, ağaclarla, başa düşdü ki,*

**13** Siz aşağıda verilmiş sözlərdən nə qədər söz düzəldə bilərsiniz? Tapdığınız sözlərdən bir neçəsi ilə cümlə qurun.

*Məsələn:* kitabxana – kitab, xan, ana, it
ağacların – ..........
heyvanların – .............

# 26. ŞİR VƏ SİÇAN




Şir yatırdı. Siçan qaça-qaça gəlib onun üstünə çıxdı. Şir oyanıb siçanı tutdu. Siçan yalvarmağa başladı ki, şir onu buraxsın. O, şirə dedi:

– Əgər sən məni buraxsan, mən də sənə yaxşılıq edərəm.

Şir siçanın bu sözünə güldü və onu buraxdı.

Bir neçə gündən sonra ovçular şiri tutub iplə ağaca bağladılar. Siçan şirin nəriltisini eşidib onun yanına gəldi, ipi dişləri ilə çeynəyərək onu xilas etdi və dedi:

– Yadındadırmı, sən gülürdün, ağlına gətirmirdin ki, mən sənə yaxşılıq edə bilərəm. İndi görürsən ki, siçan da bəzən köməyə gələ bilir.

*Lev Tolstoy*

***Atalar sözləri***

*Yaxşılıq yerdə qalmaz!*

**1** Suallara cavab verin.

1. Siçan nə üçün şirə yalvarırdı?
2. Siçan şirə nə vəd etdi?
3. Şir siçanın sözlərini necə qarşıladı?
4. Siçanın yaxşılıq etməsini necə qiymətləndirirsiniz?

**2** Sizcə, bu mətn nə üçün belə adlanır? Bəs siz mətni necə adlandırardınız?

**3** Mətnin məzmununa hansı cümlə uyğun gəlir?

a) Yaxşılıq görməyincə yaxşılıq etmə.
b) Kobud sözlərlə heç kimi incitmək olmaz.
c) Həmişə yaxşılıq etməyə çalış.

**4** Mətnin məzmununa hansı cümlə uyğun gəlmir?

a) Şir siçana inanmaq istəmirdi.
b) Ovçular şirin nəriltisini eşidib qaça-qaça gəldilər.
c) Siçan ona gülən şirə yaxşılıq etdi.

**5** Aşağıdakı cümlələri tamamlayın:

1. Siçan qaça-qaça gəlib ...  2. Siçan yalvarmağa başladı ki, ...
3. Bir neçə gündən sonra ...  4. İndi gürürsən ki, ...

**6** Nöqtələrin yerinə hərfləri yazmaqla köçürün.

1. Qonaqlı... başlanır. 2. Qonaqlı...a çox adam gəlmişdi. 3. Dostu əziz qona...ı yaxşı qarşılayır. 4. O, sinif yoldaşı ilə dostlu... etməyə başlayır. 5. Bir gün onlar razılı...a gəlirlər.

**7** Cümlələrdən hansı atalar sözüdür?

1. Bir dəfə dostum bizə qonaq gəlmişdi.
2. Dostlar tez-tez görüşürlər.
3. Dost dar gündə tanınar.
4. Qış fəsli çox soyuq olur.

**8** Dialoqu oxuyun.

– Hekayə xoşunuza gəldi?
– Bəli, çox xoşuma gəldi.
– Sizcə, şir siçana niyə inanmadı?
– Çünki siçan çox zəif və balaca idi.
– Sizcə, deyilən sözə gülmək olar?
– Xeyr, başqasının sözlərinə gülmək ədəbsizlikdir.

**9** **Yadınızdan çıxarmayın!**

| . | ? | ! | , |
|---|---|---|---|
| nöqtə | sual | nida | vergül |

**10**



Burada gizlənmiş cümlələri tapa bilərsinizmi? Tapdığınız cümlələri dəftərə köçürün. Hansı durğu işarələrindən istifadə etdiniz?

Şir yatırdı o oyanıb siçanı tutdu siçan yalvardı şir onu buraxdı siçan dedi yadındadırmı sən mənə necə gülürdün şir dedi ah sən necə də qüvvətlisən

11 Uşaqlar, bilirsiniz? Sizi çağıranda gərək **“bəli”** deyə cavab verəsiniz. Bu hekayədə olduğu kimi.



## Muradın cavabı

Murad balaca idi. Anası ona demişdi ki, başqaları onu çağıranda “bəli”, – deyə cavab versin. Ancaq Murad onu çağıranlara “hə” deyə cavab verərdi. Anası belə hərəkətinə görə bir neçə dəfə onu danlamışdı.

Bir dəfə onlara qoca bir kişi qonaq gəlmişdi. Qoca onun adını soruşdu. Murad adını dedi. Bir azdan qoca yenə onun adını çağırdı:

– Murad.

– Hə.

Qoca elə bil onu eşitmədi, bir də çağırdı. Murad yenə “hə” dedi. Qoca üçüncü dəfə də onu çağırdı. Murad yenə “hə” demək istədi. Birdən “bəli” sözü yadına düşdü. Tez cavab verdi:

– Bəli, baba.

– Bax, belə, indi səndən xoşum gəldi, – deyə qoca gülümsündü.

Murad öz hərəkətinə görə utandı.

*(N.Süleymanov)*

12 Mətnə aid suallara cavab verin.

1. Baba niyə Muradı üç dəfə çağırdı?
2. Murad hansı hərəkətinə görə utandı?
3. Sizcə, adam yalnız özündən yaşca böyüklərə “bəli” deməlidir?

13 Sizə söz çələngi təklif olunsa, hansını seçərsiniz?

Bəli!
zəhmət olmasa!
xahiş edirəm
əgər mümkünsə
təşəkkür edirəm

Hə!
özüm bilərəm
yaxşı edirəm
heç lazım deyil
çəkil o tərəfə

14 Mədəni olmaq üçün adamlarla nəzakətli danışmaq lazımdır.

*Məsələn:* Siz başqasından saatı necə soruşardınız?

– Zəhmət olmasa, deyin, saat neçədir?

Bəs siz saatı bilirsiniz?

● Saat necədir? Alınmış cümlələri dəftərinizə köçürün. Onları oxumağı öyrənin:




Saat . . . - dır.




Saat . . .-ya . . . dəqiqə qalıb.




Saat . . . -yə . . . dəqiqə işləyib.

**15** Noqtələrin yerinə şəkilçiləri qoymaqla cümlələri köçürün.

1. Saat altı....
2. Saat dörd... on dəqiqə işləyib
3. Saat altı... yarısıdır
4. Saat doqquz.. iyirmi dəqiqə qalıb.

**16** Tapmacanın cavabını tapa bilərsinizmi?

Bir atım var dərində,
Bağlamışam sərində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində. (. . . . )



**17*** Şeiri əzbərləməyə çalışın.

Çıq-çıq, çıq-çıq edərək
Gecə-gündüz işləyir.
Bizim üçün çalışır,
Heç rahatlıq bilməyir.

Nə edərik biz onsuz?!
Hər yerə gecikərik.
Axı biz ona görə
Vaxtı təyin edirik.

Saat hər birimizin
Çox ayrılmaz dostudur.
Çünki o, iş başında
Həmişə sayıq durur.

*(M.Ələsgərova)*



Uşaqlar, bilirsiniz, Mirzə Ələkbər Sabir kimdir? O, Azərbaycanın çox məşhur şairidir. Çoxlu şeirlər yazıb. Hamı onun şeirlərini sevə-sevə oxuyur. Sabir uşaqlar üçün də şeirlər yazıb. “Ağacların bəhsi”, “Gəl, gəl, a yaz günləri”, “Uşaq və buz” və s. şeirləri çox maraqlıdır. Yazdığı şeirlərdə uşaqlara tərbiyəli, səmimi, ağıllı, düzgünlüyü sevən olmağı öyrədirdi.



# 27. AĞACLARIN BƏHSİ



Alma, palıd və şam ağacları bəhsə başladılar. Palıd özünü təriflədi:



– Mən dağlardan da böyüyəm. Külək, tufan məni əyə bilməz. Mən onlardan güclüyəm.

Alma ağacı bunu eşidib dedi:



– Özünü tərifləmə. Doğrudur, sən böyüksən, ancaq sənin meyvən olmur. Mənim isə dadlı almalarım olur. Onlar çox ləzzətli və gözəldir.

Şam ağacı dedi:

– Boş danışmayın. Qışda sizin heç paltarınız da olmur. Mənim isə qışda da paltarım var. Mən insanlara lazımam. Onlar məndən ev tikirlər. Mənim insanlara xeyrim çoxdur.

**1** Verilmiş mətnin məzmununa hansı fikir uyğun gəlir?

a) Şam ağacının yarpaqları qışda tökülmür.
b) Alma, palıd ağacları çoxdan dostluq edirdilər.
c) Alma ağacı çox güclü, dağlardan da böyük idi.

**2** **“Bəhsə başladılar”** sözünü hansı sözlə əvəz etmək olar?

a) mübahisə etdilər   b) qışqırdılar   c) sakitcə söhbət etdilər

**3** Mətni oxuyub hansı nəticəyə gəlmək olar?

a) Həmişə yaxşılıq etmək lazımdır.
b) Ən yaxşısı başqalarına fayda gətirməkdir.
c) Yalan danışmaq çox pisdir.

**4** Sözlərə əksmənalı sözlər tapıb, cümlələrdə işlədin.

| | | |
|---|---|---|
| güclü | dadlı | xeyirli |
| enli | böyük | lazımlı |

**5** Ağaclara aid olan xüsusiyyətləri seçib dəftərinizə yazın.



**Açar sözlər:** *gözəl, böyük, qiymətli, meyvəli, güclü, həmişəyaşıl, dadlı, xeyirli*

*Nümunə:* Alma ağacı gözəldir, ..., ... .

**6** Cümlələri hansı ardıcıllıqla düzsəniz, mətn alınar?

a) Şam ağacı özünü öyməyə başladı.
b) Ağaclar bir yerə toplaşdılar.
c) Palıd ağacı özünü tərifləməyə başladı.
d) Alma ağacı özünü təriflədi.

1) b, c, d, a    2) b, c, a, d    3) d, c, b, a

**7** Nöqtələrin yerinə hərfləri yazın və köçürün.

gü...lü, da...lı, külə..., m...yvə, g...zəl, tu...an, palı... .

**8** *Mirzə Ələkbər Sabirin bu şeirini əzbərləməyə çalışın.

## Uşaq və buz

Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq.
Sürüşdü birdən-birə,
Düşdü üzüstə yerə.
Durdu uşaq neylədi?
Buza belə söylədi:
– Sən nə yamansan, a buz
Adam yıxansan, a buz
Az qalıb ömrün sənin,
Yaz gələr, artar qəmin,
Əriyib suya dönərsən,
Axıb çaya gedərsən!



**9** Şeirin məzmununa aid cümlələr qurub dəftərinizə yazın.

**10** Mətni oxuyun, məzmununu danışmağı öyrənin.

## Düzgün tərbiyə

Bir canavar balalarını çağırdı:

– Sizə nəsihətim var. Qoyun-quzunu didin. Onlara aman verməyin.

Ayı da balalarına belə məsləhət verdi:

– Arı pətəklərindən bal yeyin, sonra da yatın. Həmişə mənə oxşayın.

Tülkü balalarını çağırdı, onlara dedi:

– Balalarım, hiylə ilə yaşayın. Zəiflərə mərhəmət göstərməyin. Hər bir işdə mənə oxşayın.

Fil isə belə etmədi. O, balalarına dedi:

– Balalarım, sözlərimi yadınızda saxlayın. Pələng kimi cürətli olun, qartal kimi vüqarlı, arı kimi düzgünlük axtaran, qarışqa kimi zəhmətkeş olun.

Körpə fillər də analarının tərbiyəsi ilə böyüdülər.

*( Hikmət Ziya)*

**11** Mətnə hansı sualı vermək olmaz?

a) Canavar öz balalarını necə tərbiyə edirdi?
b) Tülkünün balaları niyə analarına qulaq asmadılar?
c) Mətn nə üçün "Düzgün tərbiyə" adlanır?
d) Hansı heyvan öz balalarına düzgün tərbiyə verdi?

**12** Mətnə aid olan suallara cavab verin. Adları çəkilən heyvanların xüsusiyyətlərini nümunədəki kimi təsvir edin.






***Nümunə:*** Canavar yırtıcıdır, bozdur, ..., ... .

**13** Başqa hansı heyvanların adlarını bilirsiniz? Onları belə ayıraq:

| Ev heyvanları | Yırtıcılar |
| --- | --- |
| | |

**14** Mətndə altından xətt çəkilmiş sözləri hansılarla əvəz etmək olar?

***Yaxınmənalı sözlər:***

- parçalayın,
- yalan,
- qorxmaz,
- balaca,
- bənzəyin.

**15** Nöqtələrin yerinə şəkilçilər qoymaqla cümlələri dəftərinizə köçürün.

1. Fil balaları... düzgün tərbiyə edirdi.
2. Tülkü hiylə ilə yaşayan heyvan... .
3. Ayı arı pətəklərin... bal yeyir.
4. Pələng çox cürətli ol... .
5. Canavar boz... .

**16** Cümlələri tamamlayın.

1. Fil böyük..., amma arı ... . 2. Canavar boz..., amma tülkü ... . 3. Ayı yırtıcı..., amma quzu ... . 4. Tülkü hiyləgər..., amma it ... . 5. Filin balası da böyük..., amma dovşanın balası ... .

**17** Mətni oxuyun, məzmununu danışmağa çalışın.

Bir it çayın üstündəki körpüdən keçirdi. Onun ağzında sümük var idi. O, suya baxdı. Orada öz əksini gördü. Elə bildi ki, başqa itdir. Onun ağzında sümük var. İt sümüyü almaq istədi. O, özünü suya atdı. Orada nə it tapdı, nə də sümük. İt öz ağzındakı sümüyü də itirdi.





## NAĞILLAR ALƏMİNƏ SƏYAHƏT

Dostlar, indi də nağıllar aləminə səyahətə çıxaq. Bura elə sehrli aləmdir ki, divlərlə, uçan xalçalarla, sehrli tütəklə və başqa qüvvələrlə rastlaşırsan. Siz heç mənim haqqımda nağıl eşitmişsiniz? Qulaq asın, danışım.

# 28. CIRTDANIN NAĞILI

Biri var idi, biri yox idi. Balaca bir oğlan var idi. Bu oğlan o qədər balaca idi ki, adına Cırtdan deyirdilər.

Bir gün uşaqlar meşəyə odun yığmağa gedirlər. Cırtdan da onlarla gedir. Lakin hava qaraldığından uşaqlar yolu azırlar. Bilmirlər hansı tərəfə getsinlər. Cırtdan uzaqdan işıq gələn yeri göstərib deyir:

– Gəlin ora gedək.

Uşaqlar həmin evə çatırlar. Bu ev divin evi idi. Div uşaqları görüb sevinir ki, onları yatırdıqdan sonra bir-bir yeyəcək.

Cırtdan ağlamağa başlayır. Div soruşanda o deyir:

– Mən yatmamışdan qabaq su içirəm.

Div su gətirməyə gedəndə Cırtdan uşaqlarla birlikdə qaçır. Cırtdan hamını divin qəzəbindən qurtarır.

**1** Suallara cavab verin:

1. Cırtdan necə oğlandır?
2. Onun hansı xüsusiyyəti sənin xoşuna gəldi?
3. Div Cırtdana inanmasaydı, Cırtdan onu inandırmaq üçün daha nə deyə bilərdi?
4. Siz Cırtdanın yerində olsaydınız, uşaqları necə xilas edərdiniz?
5. Cırtdan yalan danışdı. Sizcə, o düzgün hərəkət etdi?
6. Siz daha hansı nağıl qəhrəmanlarını tanıyırsınız?
7. Onların içərisində heç xeyirxahı var?

**2** Mətnə hansı sualı vermək olmaz?

A) Uşaqlar meşəyə nə üçün getmişdilər?
B) Cırtdan divdən nə soruşdu?
C) Uşaqlar necə xilas oldular?

**3** a) Mətndə hansı sözü **"itirirlər"** sözü ilə əvəz etmək olar?

b) Hansı sözü **"hirsindən"** sözü ilə əvəz etmək olar?

**4** Nöqtələrin yerinə lazım gələn sözləri əlavə edin.

Cırtdan necədir? — . . . / . . . / . . . / . . . / . . .

Cırtdan nə edir? — . . . / . . . / . . . / . . . / . . .

**5** Hərəkət bildirən sözləri əlavə edərək cümlələri dəftərinizə yazın.

| | | |
|---|---|---|
| Uşaqlar | meşəyə... | azdılar |
| | odun... | qaçdılar |
| | meşədə... | yandırdılar |
| | evdən... | yığdılar |
| | tonqal... | getdilər |

**6** Hansı keyfiyyətlər Cırtdana yaraşmır? Onları seçərək yazın və cümlələrdə işlədərək dəftərinizə yazın.

uca, balaca, ağıllı, qorxaq, dəcəl, tədbirli, yalançı, bacarıqlı, tənbəl, lovğa

**7** 

Uşaqlar, mənim divi aldatmağım, yalan danışmağım dostlarımı xilas etdi. Balaca Ayazın yalan danışmağı isə onu utandırdı.

## Balıq Ayaz



Balaca Ayaza babasının adını qoymuşdular. O da babası kimi qəhrəman olmaq istəyirdi. Amma əksinə oldu.

Yayda Ayaz kəndə nənəsigilə qonaq getmişdi. Bir gün Ayaz evlərinin yanındakı gölməçədən balaca bir balıq tutdu. Nənəsinin məsləhəti ilə onu bankaya saldı. Qonşusu Nuru gəldi. Onlar balığa tamaşa etməyə başladılar. Ertəsi gün balıq öldü.

Ayaz uşaqları başına toplayıb danışmağa başladı:

– Balıq çox böyük idi. Ola bilsin, balina nəslindən idi. Çox çətinliklə evə aparmışdım.

Birdən Ayazın dostu Nuru da gəldi. Ayaz heç nə demədən evlərinə qaçdı. Nuru əhvalatı uşaqlara olduğu kimi danışdı.

Həmin gündən hamı Ayazı "Balıq Ayaz" çağırırdı.

*(Əli Səmədov)*

8 Verilmiş sözlərə əksmənalı sözlər tapıb dəftərinizə yazın.

| | |
|---|---|
| yayda – | getmişdi – |
| balaca – | qəhrəman – |
| çətinliklə – | tutdu – |
| dost – | qaçdı – |

9 Şəkillərə baxıb cümlələr düzəldin və dəftərinizə yazın.






10 Cümlələri tamamlayın.

a) Ayaz tətildə nənəsigilə qonaq ... .
b) Ayaz uşaqları başına toplayıb ... .
c) Ayaz heç nə demədən evə ... .

11 Uşaqlar, siz nağıllara inanırsınız? Şeiri əzbərləyə bilərsinizmi?



## İnanmırsan?

İnanmırsan, ay Vüqar,
Belə olur nağıllar? –
Adam quşa çevrilir,
Balıq danışa bilir,

Xalçada uçmaq olur,
Dənizdə qaçmaq olur.
İnanmırsan, ay Vüqar,
Belə olur nağıllar?

*(Rüfət Əhmədzadə)*

12 Hansı söz hecalara düzgün ayrılmayıb?

a) nağ - ıl - lar b) xal - ça c) də - niz - də

13 Hansı cərgədəki sözlərin hamısı üçhecalıdır?

a) balıq, tilov, ovçu
b) balaca, uşaqlar, nağıllar
c) quşlar, divlər, pətək



Uşaqlar, mən bilirəm, siz həyatda ən çox kimi sevirsiniz. İstəyirsiniz, deyim? Əlbəttə ki, doğmalarınızı. Çünki mən də doğmalarımı çox sevirəm. İndi sizə maraqlı bir nağıl danışacağam.

# 29. ANA-BALA MƏHƏBBƏTİ

(ixtisarla)



Bir şah ölkəsini gəzmək istəyir. Əmr edir ki, faytona dörd yaxşı at qoşsunlar.

Şah səyahətə başlayır. Onlar bir dağ çayından keçməli olurlar. Faytonçu nə qədər çalışırsa, atlar çayın ortasında dayanırlar. Çayı keçə bilmirlər.

Bu zaman bir araba çaya yaxınlaşır. Arabaya iki arıq at qoşulmuşdu. Arabaçı çayı asanlıqla keçir. Şahın adamları geri qayıdırlar.

Şah bu işə çox təəccüblənir. Arabaçını çağırtdırır və soruşur:

– Qoca, necə olur ki, mənim faytonum yüngül, atlarım da dünyanın hər tərəfindən gətirilmiş seçmə atlar ola-ola, çayı keçə bilmirlər, sənin arıq atların isə çayı asanlıqla keçirlər?

Qoca cavab verir:

– Şah sağ olsun, sizin atlarınız bir-birinə yaddır. Ona görə də bir-birinə kömək etmək istəmirlər. Mənim atlarım isə ana-baladır. Ona görə də bir-birinə kömək edirlər. Arabanı çaydan keçirən də elə bu doğmalıqdır.

*(Azərbaycan xalq nağılı)*

Şahın arabasına qoşulmuş atlarla, o biri arabaya qoşulmuş atları müqayisə edə bilərsinizmi?

**1** Suallara cavab verməyə çalışın:

1. Doğmalıq hisləri ancaq heyvanlarda olur?
2. Hansı insanlar bir-birinə doğma sayılır?
3. Doğma olan insanlar nə etməlidirlər?
4. Arabaçının atları nə üçün bir-birinə kömək etdi?

**2** Öz ailəniz haqqında qısaca yazın və danışın.

**3** Siz öz doğmalarınıza kömək etmisinizmi? Bəlkə bu haqda danışasınız.

**4** Mətndə hansı cümlə yerində işlənməmişdir?

**5** Mətnə hansı sualı vermək olmaz?

A) Atları şaha hansı ölkələrdən göndərmişdilər?
B) Fayton haradan keçməli idi?
C) Arabaçının atları necə idi?

**6** Mətndə işlənmiş hansı sözləri – **ağır, pis, çətinliklə, uzaqlaşır, kök, doğma** – sözlərinin əksi kimi yazmaq olar? Həmin sözləri seçib qarşı-qarşıya yazın.

**7** Təhsil aldığınız dilə tərcümə edib, dəftərinizə yazın.

gəzmək istəyir –
səyahətə başlamaq –
çayın ortasında –
çaya yaxınlaşır –
çayı keçir –
şax təəccüblənir –
dərin çay –
asanlıqla keçir –

**8** Sözləri tamamlayın və cümlələr düzəldib yazın.

Atlar çay... yaxınlaş... Atlar çay... keçmə... Şah araba...nı çağır... Araba... şah... cavab ver... . Doğma... atlar... kömək et... .

**9** Hansı atalar sözü mətnə uyğundur? Atalar sözlərini əzbərləyin.

***Atalar sözləri***

*a) Güc birlikdədir.*
*b) Tək əldən səs çıxmaz.*
*c) Ana bala yolunda canını oda yaxar.*

**10** 

Uşaqlar, mənə kömək edin.

## Mən hamının balasıyam

Məndən soruşurlar ki, kimin balasısan? Mən deyirəm: Əlbəttə, atamın, anamın!

Amma indi bilmirəm, kimin balası olum: anamın, atamın, nənələrimin, babalarımın, əmilərimin, bibilərimin, xalalarımın?

Onların hamısı üzümdən öpüb deyir:

– Ay mənim əziz balam!

Özünüz deyin: heç bu qədər adamın balası olmaq olar? Onlar çox, mən isə tək. Dünən qonşuda yaşayan qoca qadına kömək etdim. Zənbili əlindən alıb evlərinə apardım. O, məni qucaqlayıb öpdü və dedi:

– Mənim gözəl balam! Çox sağ ol!

Mən çox sevindim. Çünki bir nənəm də artmışdı.

Dünən müəllimə dərsdə dedi ki, bizim iki anamız var: biri bizim öz anamız, o birisinin isə adına **Ana Vətən** deyirlər.

Doğrudan da, hamının balası olmaq əsl xoşbəxtlikdir.



( *Ağəddin Mansurzadədən)*

**11** Hamının sevimlisi, əzizi olmaq üçün insan hansı xasiyyətdə olmalıdır? Bu haqda fikirlərinizi dəftərinizdə yazın və oxuyun.

**12** Mətndən insan adları bildirən sözləri seçib cümlədə işlədin və dəftərinizdə yazın.

**13** Cümlələri tamamlayın və köçürün.

| | |
|---|---|
| Xalam | həkim... . |
| Bibim | mühəndis... . |
| Əmim | təqaüdçü... . |
| Dayım | hərbçi... . |
| Babam | hüquqşünas... . |
| Nənəm | evdar qadın... . |
| Atam | müəllim... . |
| Anam | tərbiyəçi... . |

**14** Verilmiş sözlərə yaxınmənalı sözlər seçib dəftərinizdə yazın.

xoşbəxtlik
çox
qoca
yaşamaq
demək
soruşmaq

**15** Cümlələr düzəldin və dəftərinizdə yazın.

doğmalarımı, mən, sevirəm, çox, öz

böyüklərin, uşaqlar, baxmalıdırlar, sözlərinə

məni, nənə, öpdü, qucaqlayıb

**16** Sözlərin tərcüməsini dəftərinizdə yazın və əzbərləyin.

anamın bacısı –
atamın bacısı –
anamın qardaşı –
atamın qardaşı –
qohumlar –
qonşular –
yaxınlar –

# 30. ŞİR VƏ TÜLKÜ



Bir gün şir ova çıxmışdı. O, tülküyə rast gəldi. Şir qəzəblə dedi:

– Yeyəcəyəm səni!



Tülkü çox hiyləgər idi. O, şirə dedi:

– Sən heyvanların şahısan. Sənə yem olmaq mənə xoşdur.

Bu sözlər şirin xoşuna gəldi. O, tülkünü öldürmədi. Öz yuvasına gətirdi. Hər gün ov edərək, tülkünü yemləməyə başladı.

Bir dəfə şir ovda yaralandı. Geri qayıtdı. Tülküdən su istədi. Tülkü isə iri bir daşı onun yarasına çırpdı. Şirə su vermədi.

Şir çox qəzəbləndi. Amma tülkünü vurmağa gücü çatmadı. Tülkü dedi:

– Yazıq şir, mən çoxdan bu günü gözləyirdim. Mən sənin nökərin deyiləm. İndi canım səndən qurtardı.

Şir tülküyə inandığı üçün çox peşman oldu. Tülkünün acı sözləri onun qəlbini ağrıtdı.

**1** Nağılı oxudunuz? İndi suallara cavab verin.



1) Şir nə üçün tülkünü öldürmədi?
2) Onlar birlikdə necə yaşadılar?
3) Bir gün şirə nə oldu?
4) Şirə su vermək əvəzinə tülkü nə etdi?
5) Sizcə, tülkü düzgün hərəkət etdi?
6) Şir tülkünün hərəkətindən sonra nə etdi?

**2** Mətnin məzmununa hansı atalar sözü uyğun gəlir?

**Atalar sözləri**

*a) Acıqlı başda ağıl olmaz.*
*b) Yalançı ilə dostluq edənin axırı pis olar.*
*c) Gücün çatmayan işdən yapışma.*

**3** Mətndə qırmızı hərflərlə verilmiş sözün yerinə hansı sözü yazmaq olmaz?

a) hirsləndi  b) sevindi  c) acıqlandı

**4** 

Oxuduğunuz nağılda tülkü şirlə yalandan dostluq edirdi. Şir ona inandığı üçün axırda peşman oldu. Bəs sizin belə dostunuz olsa, necə hərəkət edərdiniz? Bu haqda düşündüklərinizi sinif yoldaşlarınıza da danışın.

**5** Sözləri təhsil aldığınız dilə tərcümə edib dəftərinizdə yazın.

hiyləgər, qəddar, qəzəblə, yaralanmaq, ov, yem, çoxdan, xidmətçi, inanmaq, gücü çatmamaq

**6** Cümlələri tamamlayın.

Mənim dost ...
Sənin dost ...
Onun dost ...
Bizim dost ...
Sizin dost ...
Onların dost ...

**7** Verilən sözlərə oxşar sözlər tapmağa çalışın.

dedi – ..., ... .
rast gəldi – ..., ... .
getdi – ..., ... .
qəzəbləndi – ..., ... .
çox – ..., ... .
güc – ..., ... .

**8** Parta yoldaşınızla birlikdə dialoqu oxuyun.

– Ana, mən bu gün məktəbə getməyəcəyəm.
– Nə üçün?
– Özümü pis hiss edirəm, başım ağrıyır.
– Yaxşı, onda sən evdə qal. Mən qardaşınla gəzməyə gedirəm.
– Ana, başımın ağrısı keçdi. Məni də gözləyin. Dərsdən sonra birlikdə gedərik.

- Sizcə, uşaq xəstə idi? Yalançı uşaq böyükləri aldatmaqla düzgün hərəkət edir?

**9**  Dostum, nağılda gördün ki, şirin yaxşılığına tülkü pisliklə cavab verdi. Çünki o, hiyləgər və yalançıdır. Amma əsl dostlar belə hərəkət etməzlər. Lap İlqar kimi. Gəlin onunla tanış olaq.



Dərs ili yenicə başlanmışdı. Gülşən rəfiqəsi Solmazla birlikdə oturmuşdu. Rəfiqələr bütün dərsi dərsə qulaq asmaq istəmirdilər. Müəllim bunu hiss etdi. Gülşəni birinci partada, İlqarın yanına oturtdu. Bu, qızın xoşuna gəlmədi. Parta ona çox balaca göründü. Tez İlqara dedi:

– O tərəfə çəkil!

İlqar partanın kənarına çəkildi. O biri dərsdə İlqar əyilib çantasından kitab götürəndə qolu Gülşənə toxundu. Qız hirsləndi. Tez tabaşir çıxarıb xətlə partanı iki yerə ayırdı. . .

Müəllim şagirdlərdən təzə dəftər yığmağa başladı. Gülşənin dəftəri yox idi. O biri dərsdə isə yoxlama işi yazmalı idilər. İlqar tez çantasından bir dəftər çıxarıb Gülşənin qabağına qoydu.

Gülşən onun üzünə baxıb kağızla partanın üstündəki ağ xətti sildi.

**10** Sizcə, mətni necə adlandırmaq olar?

A) Rəfiqələrin söhbəti
B) İlqarın hərəkəti
C) Gülşənin dostluğu

**11** Mətnə aid suallara cavab verin.

1. Yeni parta niyə Gülşənin xoşuna gəlmədi?
2. Gülşən niyə hirsləndi?
3. Nəyə görə Gülşən partanı iki yerə ayırdı?
4. İlqarın hansı hərəkəti Gülşənə xoş gəldi?
5. Sizcə, İlqar necə oğlandır?
6. Siz parta yoldaşınızla necə yola gedirsiniz?
7. Parta yoldaşınızın hansı xüsusiyyətləri sizin xoşunuza gəlir?

**12** Mətndəki hansı sözləri İlqara aid etmək olar?

səliqəli, xeyirxah, mehriban, yalançı, kobud, qayğıkeş, düşüncəli, təmkinli

**13** Atalar sözünün mənasını izah etməyə çalışın. Onu dəftərinizə köçürün. Bir-birinə əksmənalı sözlərin altından xətt çəkin.

**Atalar sözü**

*Yaxşılığa yaxşılıq hər kişinin işidir,*
*Yamanlığa yaxşılıq ər kişinin işidir.*

**14** Bir sözlə cavab verin. Elə sözlər tapın ki, sonunda **"q"** hərfi olsun.

1) Saçı nə ilə darayırlar?
2) Akvariumda nə saxlayırlar?
3) Süddən nə hazırlanır?

**15** Sözləri nümunədə olduğu kimi dəyişin. Onlardan üçünü cümlədə işlədin.

qulaq – qulağın
qaşıq –
qatıq –
daraq –
balıq –

budaq –
yanaq –
barmaq –
dırnaq –

# 31. QIZILGÜLÜN NAĞILI



Qədim zamanlarda bir bağban vardı. O, gül-çiçəyi çox sevərdi. Qızılgüldən isə daha çox xoşu gələrdi. Ancaq qızılgül açılanda gecə kimsə gəlib onu aparardı.

Bir gün oğrunu tutmaq üçün bağban keşik çəkməli olur. Gecə keçir, lakin oğru görünmür. Səhərə yaxın bağban səs eşidir. Gözünü açanda bir divin qızılgülləri dərdiyini görür.

Səhər bağban gəlib gördüyünü qoca bir kişiyə danışır. Qoca onu arxayın edib sakitləşdirir. Dərdinə çarə tapılacağını söyləyir.

Ertəsi gün bağban gələndə görür ki, bağda çoxlu qızılgül açıb. Diqqətlə baxanda qızılgüllərin budaqlarında tikanlar görür. Başa düşür ki, bu, qocanın işidir. Çox heyifsilənir. Lakin başa düşür ki, bu tikanlar gözəlliyi qorumaq üçündür. Deyirlər ki, o vaxtdan qızılgüllər tikanlı qalıb.

*(Hüseyn Abbaszadə)*

**1** Mətndə hansı suala cavab yoxdur?

A) Bağban hansı gülü daha çox sevərdi?
B) Gülləri kim oğurlayırdı?
C) Div nə üçün qızılgülün tikanlarını qırdı?

**2** Siz daha hansı gülləri tanıyırsınız? Şəkildə gördüyünüz güllərin adlarını və əlamətlərini dəftərinizə yazın.

***Nümunə:*** Qızılgül qırmızıdır, gözəldir, ... .



**3** Dialoqu dostlarınızla oxuyun.



– Nərmin, nağıl xoşuna gəldi?
– Azər, nağıl çox xoşuma gəldi.
– Orada ən çox xoşuna gələn nə oldu?
– O nağılı oxuyanda özümü gözəl qızılgüllərin içində hiss edirdim.
– Səncə, bağban düzgün hərəkət etdi?
– Sən onun hansı hərəkətini deyirsən?
– Qızılgülün tikanlı olmasına səbəb olan hərəkətini deyirəm.
– Yəqin ki, o, bunu qızılgüllərin oğurlanmasına görə etmişdi. Axı bağban qızılgülləri çox sevirdi.
– Əgər qızılgüllər tikanlı olmasaydı, div onları həmişə oğurlayacaqdı.
– Əlbəttə, gözəlliyi qorumaq lazımdır.

**4** 

Bəs siz, uşaqlar, necə düşünürsünüz, gözəlliyi necə qorumaq olar? Düşündüklərinizi bir neçə cümlə ilə dəftərinizə yazın.

**5** Nöqtələrin yerinə hərfləri qoymaqla köçürün.

Nər...iz, bənö...şə, ya...əmən, qızıl...ül, la...ə, novruz...ülü, inciçi...əyi, mi...ək, çobanyas...ığı, za...baq, ...ərənfil.

**6** Səhvləri düzəltməklə cumlələri dəftərinizə köçürün.

1. Mən qızılqülü çox sevirəm.
2. Bağban ağaçlara qulluğ edir.
3. Uşaxlar bağbana köməy edirlər.
4. Baxçada çoxlu çiçəy var.

**7** Mətndən suallarına görə seçilmiş cümlələri tapıb dəftərinizə yazın.

1. kim? nəyi? nə qədər? nə edərdi?
2. nə vaxt? kim? nə? nə edir?
3. kim? kimi? necə? nə edir?

**8** 

Uşaqlar, gözəlliyi təkcə qorumaq yox, onu yaratmaq da lazımdır. Görün Elçin bunu necə etdi?

## Elçinin ağacı

Yayda Elçingil bağa köçmüşdülər. Elçinin babası Musa kişi yay-qış bağda qalır, ağaclara qulluq edir, gül-çiçək becərirdi. Elçin də hər səhər tezdən oyanıb babası ilə birlikdə bağda çalışırdı.



Bağda çox nəhəng tut ağacı vardı. İsti vaxtlar bütün qonşular bu ağacın kölgəsinə toplaşırdılar. Hər dəfə “bunu əkən adamın əli-qolu var olsun”, – deyirdilər.

Bir gün Elçin babasına dedi:

– Baba, mənə də ağac əkməyi öyrət.

Qızıl payız gəldi. Babasının göstərdiyi yerdə Elçin bir çinar ağacı əkdi. Bütün ili istirahət və tətil günlərində gəlib ağaca qulluq etdi. Ağac böyüdü. Kölgəsi ətrafa düşdü. Hamı bu ağaca “Elçinin ağacı” deməyə başladı. Balaca Elçin bundan çox sevindi.

*(Nəriman Süleymanov)*

**9** Mətnə hansı sualları vermək olmaz?

A) Elçinin arzusu nə idi?
B) Elçin uşaqlarla nə edirdi?
C) Musa baba Elçinə nə öyrətdi?
D) Elçin hansı ağacı əkmək istəyirdi?

**10** Uşaqlar, sehrli ağacdakı hecalardan sözlər düzəldib dəftərinizə yazın.




**11** Şeiri oxuyun. Altından xətt çəkilmiş cümlənin mənasını izah edin. Düşündüklərinizi dəftərinizə yazın.

Ay uşaqlar, gəlin biz
Gözəlliyi qoruyaq.
Dağı, gülü, çəməni,
Meşələri qoruyaq.
Onlar bizi qoruyur,
Biz onları qoruyaq.

**12** Cümlələri tamamlayın.

| | |
|---|---|
| Mən qoruyur... | Biz qoruyur... |
| Sən qoruyur... | Siz qoruyur... |
| O qoruyur... | Onlar qoruyur... |

**13** **“e”** yoxa **“ə”**. Nöqtələrin yerinə uyğun gələn hərfi yazın.

p $\frac{\text{e}}{\text{ə}}$ ndir, d $\frac{\text{ə}}{\text{e}}$ və, ç $\frac{\text{e}}{\text{ə}}$ kmək, g $\frac{\text{e}}{\text{ə}}$ niş, ç $\frac{\text{ə}}{\text{e}}$ kic

**14** **“Elçinin ağacı”** hekayəsindəki hadisələri hansı ardıcıllıqla düzmək olar?

1. Elçin çox sevindi.
2. Elçin ailəsilə bağa köçdü.
3. Babasından ona ağac əkməyi öyrətməsini xahiş etdi.
4. Babası ilə bağa qulluq etməyə başladı.
5. Elçin ağacı əkdi, ona qulluq etdi.
6. Ağac böyüdü, kölgəsi ətrafa düşdü.

A) 2, 4, 3, 5, 6, 1 B) 4, 2, 3, 1, 5, 6 C) 2, 3, 4, 5, 6, 1



Uşaqlar, biz müstəqil respublikamızın azad vətəndaşlarıyıq. Vətənimiz, dövlətimiz bizə hər şey vermişdir. Siz heç bilirsiniz azadlıq nədir?

# 32. BÜLBÜLÜN NAĞILI



Bir xan qəfəsdə bülbül saxlayırdı. O, qəfəsi qızıldan düzəltdirmişdi. Qəfəsin ətrafında hər cür güllər əkdirmişdi. Lakin bülbül heç oxumurdu.

Bir gün xan dedi:

– Mən onu yaxşı bəsləyirəm. Bu quş isə heç oxumur. Buraxın onu çıxıb getsin. Ancaq izləyin, görün hara gedir.

Adamlar bülbülü izlədilər. Gördülər ki, bülbül bir kolun üstündəki bülbül yuvasına qondu və oxumağa başladı. Bunu xana xəbər verdilər. Xan dedi: “Deməli, bülbül öz yuvasında olduğu üçün oxumağa başladı”.

Həqiqətən də, hər kəsə öz Vətəni əzizdir. Vətən şirindir. Onu qorumaq lazımdır.

*(Azərbaycan xalq nağılı)*

Uşaqlar, bülbüllər gülləri sevir. Bəs nə üçün bülbül kolun üstündə oxudu?

**1** Suallara cavab verin:

1. Siz xanın yerində olsaydınız, nə edərdiniz?
2. Siz hansı quşları sevirsiniz?
3. Sevdiyiniz quşu mütləq qəfəsdə saxlamalısınız?

**2** Mətndə hansı sözü **“qulluq edirəm”** sözü ilə əvəz etmək olar?

**3** Sözləri tamamlayaraq yazın.

Mənim<br>Sənin<br>Onun<br>Bizim<br>Sizin<br>Onların — Vətən — . . .<br>. . .<br>. . .<br>. . .<br>. . .<br>. . .

Vətən — mənim. . .<br>sənin. . .<br>onun. . .<br>bizim. . .<br>sizin. . .<br>onların. . .

**4** Hansı atalar sözü mətnə uyğundur? Həmin atalar sözünü əzbərləyin.

***Atalar sözləri***

*a) Alim olmaq asandır, insan olmaq çətin.*
*b) Gözsüz yaşamaq olar, Vətənsiz yox.*
*c) Qələm qılıncdan itidir.*

**5** **Bülbülə** aid əlamətləri seçərək cümlələr düzəldin və yazın.

balaca, sarı, qara, ağ, böyük, oxuyur, cikkildəyir



Bülbül

**6** Dərs zamanı müəllim kiçik imla yazdırdı. İmlada Günelin səhvlərini düzəldə bilərsinizmi?

> Mənim Vetenim Azərbaycandı. Bura çox gözəl digardır. Ölkəmizdə qeniş çölər, sıx meşələr, yaraşığlı çəmənnər var. Vətənim çox sevirəm.

**7** Hansı söz hecalara düzgün bölünməmişdir?

a) qəf - əs  b) bül - bül  c) o - xu - yur - du



**8** Uşaqlar, mən çiçəkləri, gülləri çox sevirəm. Hətta onların haqqında əfsanələr, rəvayətlər də bilirəm. Ancaq bir dəfə ...

## Qərənfillər





Günel rəngli karandaşları ilə çox gözəl şəkillər çəkirdi. Hamı onun çəkdiyi şəkilləri tərifləyirdi. Xüsusən, təbiət mənzərələri, güllərin, çiçəklərin şəkli onda çox gözəl alınırdı.

Bir gün Günel çoxlu qərənfil şəkli çəkdi. Əmisi başının üstündə dayanmışdı. O, qərənfilləri görüb çox kədərləndi. Günel bunun səbəbini soruşdu:

– Əmi, qərənfil ən gözəl güldür. Nə üçün sən, atam, nənəm ona baxanda kədərlənirsiniz?

Əmisi cavab verdi:

– Qızım, biz həmişə ən sevincli günlərimizdə əzizlərimizə qərənfil bağışlamışıq. Lakin 1990-cı il 20 Yanvar hadisələrindən sonra qərənfillər Vətənimizin azadlığı uğrunda öz canlarından keçən şəhidlərimizin hədiyyəsi oldu. Ona görə də mən hər dəfə qərənfilə baxanda şəhidlərimiz yadıma düşür.

**9** Suallara cavab verin:

1. Siz Şəhidlər xiyabanında olmusunuz? Oraya qərənfillər aparmısınızmı?
2. 20 Yanvar şəhidləri haqqında nə bilirsiniz?
3. Siz azadlığı necə başa düşürsünüz?

**10** Sıranı hansı sözlə davam etdirmək olar?

Qərənfil, nərgiz, lalə, qızılgül, ...

a) yasəmən  b) ağac  c) yarpaq

**11** Hansı söz həm kiçik, həm də böyük hərflə yazıla bilər? Nə üçün?

a) ağac  b) kök  c) lalə

**12** Hansı sırada nöqtələrin yerinə eyni hərfi yazmalıyıq?

a) ağa..., kərpi..., ən...ir .
b) kən..., qən..., ki...ab.
c) nər...iz, ...ərənfil, qızıl...ül.

**13** Mətnə əsasən cümlələri davam etdirin.

1. Günel rəngli karandaşları ilə ... .
2. Bir gün Günel ... .
3. O, qərənfilləri görüb ... .
4. Ona görə də mən hər dəfə ... .

# İZAHLI LÜĞƏT

## A

abidə - xatirə olaraq qoyulan nişangah, memarlıq əsəri, heykəl.
aman - masal, imkan; rəhm, mərhəmət
araba - iki və ya dörd çarxlı nəqliyyat vasitəsi

## B

balina - ən böyük və ağır çəkili dəniz məməlisi
bəstəkar - musiqi bəstələyən, musiqi əsərləri yaradan adam, sənətkar
bilik - elm, oxumaq və ya təcrubədə öyrənməklə əldə edilən sərvət
bitki - torpaqda bitən hər şey, ağac, gul, göyərti, kol və s.

## C

canavar - yırtıcı vəhşi heyvan, qurd
cəsarət - qorxmazlıq, hünər, cürət, kişilik
coşmaq - özündən çıxmaq, qəzəblənmək
cücü - uçan həşərat, milçək, arı və s.

## Ç

çəmən - yaşıllıq ərazi, ot bitmiş yer
çırpmaq - şiddətlə vurmaq, döymək; tozdan təmizləmək
çöl - düzənlik
çubuq - yarpaqsız nazik budaq

## D

dalğa - su səthində yaranan ləpə
danlamaq - məzəmmət etmək, töhmət etmək
dava - vuruş, döyüş, müharibə
divanxana - keçmişdə inzibatı hökumət idarələrinə verilən ümumi ad
diyar - ölkə, məmləkət, məskən
düşmən - əks, zidd tərəfə aid olan adam, əks cəbhəyə mənsub olan

## E

ecazkar - qəribə, möcüzəli, çox təəccübli
elm - təbiət və cəmiyyət haqqında biliklər sistemi
eynək - gözlük, çeşmək

## Ə

əhali - bir yerdə, ölkədə, ərazidə yaşayan adamlar, camaat
əhvalat - hadisə, olmuş iş, sərgüzəşt
əksinə - tərsinə, ziddinə
ərzaq - yeyiləcək şeylər, yeyinti məhsulları
əsas - bünövrə, təməl; zəruri, vaşlıca, ən mühüm

ətraf - dörd tərəf, yan-yörə, yanlar
əylənmək - vaxtını xoş keçirmək, əyləncə ilə məşğul olmaq

## F

fayda - xeyir, mənfəət, qazanc
fayton - üstü açılıb-örtülən dördçarxlı minik arabası
fəhlə - fabrik, zavod və s. istehsalat sahələrində istehsalçı
fəlakət - bəla, bədbəxtlik, faciə, müsibət, qəza
fidan - ağac və kolların kötüyündən qöyərən cavan ağac, pöhrə
fikir - düşüncə, ideya, mülahizə, rəy, qənaət

## G

geri - arxa, dal, dala, arxaya, dal tərəfə
gənc - cavan, 18 - 40 yaş arasında olan
göl - hər tərəftən quru ilə əhatə olunmuş su hövzəsi
gölməçə - kiçik göl, su və ya çirkab yığını
guşə - künc, bucaq, xüsusi yer, hissə
gümrah - sağlam, qıvraq
güzgü - ayna

## H

hacıleylək - uzun ayaqlı, uzun dimdikli quş növü
hekayə - nəqletmə əsasında qurulan kiçik epik əsər
heykəl - bədəni bütöv göstərən abidə
heyrət - çaşqınlıq, təəccüb
həqiqət - bir şeyin doğru olanı, həqiqi olanı, doğruluq, düzgünlük
həşərat - cücü
həvəs - maraq, meyil, istək
hikmət - müdrik söz, dərin fikir
hiss - duyğu, duyma
hiylə - aldatma, biclik, kələk
hörmət - ehtiram, sayğı

## X

xeyir - qazanc, mənfəət, gəlir, fayda, səmərə
xəbərçi - xəbər aparıb-gətirən,ağzında söz durmayan adam
xüsusi - ancaq bir şəxsin, ictimai təşkilatın özünə aid olan, şəxsi

## İ

ifa - bir işi icra etmə, həyata keçirmə; müəyyən bir mahnını oxuma, rolu oynama
ixtira - kəşf, kəşf etmə, yaratma, icad etmə
istirahət - dincəlmə, rahatlanma, dinclik, rahatlıq
izah - şərh, anlatma, şərh etmə
izləmək - təqib etmək, birisinin izi ilə getmək, güdmək

## K

kal - yetişməmiş, dəyməmiş
keşik - qarovul, qoruma, mühafizə etmə
kəpənək - bədəni və qanadları cürbəcür rəngli dördqanadlı böcək
kisə - torba
kobud - sərt, cod; ədəbsiz, nəzakətsiz
kol - çoxbudaqlı, çoxillik bitki
közərmək - yanıb qızarmaq, alovsuz yanmaq

## Q

qanad - quşlarda və cücülərdə uçmaq orqanı
qarışqa - xırda cücü
qayıq - suyun üzərində üzmək üçün kiçik gəmi
qədim - çox köhnə zamanlara məxsus, köhnədən qalma
qida - ərzaq, ərzaq məhsulu,yeməli şeylər, məhsullar
qoçaq - igid, cəsur, qorxmaz
qoruq - müəyyən ərazinin dövlət tərəfindən mühafizə edilməsi

## L

layiq - yaraşan
ləpir - iz, nişan, ayaq izi

## M

məqbərə - qəbirüstü tikili
məlumat - informasiya, xəbər
mənzərə - ümumi görünüş
mərd - igid, sözündən dönməyən
mərhəmət - rəhm, halına acıma
müğənni - mahnı oxuyan, xanəndə
mürəbbə - meyvələrdən bişirilmiş duru şirni

## N

nadinc - dəcəl, şuluq, dinc durmayan
nəhəng - son dərəcə böyük, iri, çox yekə
nəsihət - tərbiyəvi sözlər,məsləhət

## O

odun - yandırmaq üçün doğranmış ağac parçaları
oğru - kiminsə pulunu, əmlakını gizli yollarla ələ keçirən, əliəyri

## Ö

ögey - doğma olmayan
övlad - oğul və ya qız, oğul-uşaq
öyünmək - özünü tərifləmək, lovğalanmaq

## P

pay - müəyyən bir şeydən hər kəsə düşən hissə, hədiyyə, bəxşiş
peşə - sənət, ixtisas
peşman olmaq - səhvini başa düşərək təəssüflənmək

## R

razı qalmaq - məmnun qalmaq
rəfiqə - qız yoldaşı
rəng - boya
rəsm - şəkil çəkmə sənəti, çəkilmiş şəkil

## S

savad - bilik, yazı-pozu bacarığı
sayıq - ehtiyatlı, gözüaçıq, ayıq
səma - göy, asiman
səmimi - mehriban, qayğıkeş
sərvət - var, dövlət

## Ş

şıltaq - dəcəl, nadinc
şüalar - hər hansı işıq mənbəyindən gələn işıq seli,işıq telləri
şübhə - tərəddüd, inanmama

## T

talamaq - qarət etmək, soymaq
tarla - əkin yeri, zəmi
təəccüb - heyrət, gözlənilməzlik
təmir - dağılmış, sökülmiş, xarab bir şeyi düzəltmə, qaydaya salma
toplamaq - bir yerə yığmaq, bir yerə çağırmaq

## U

uğrunda - yolunda, naminə, xatirinə
ulduzlar - göy cismi

## V

vətənpərvər - öz vətənini sevən, xalqına, vətəninə bağlı olan

## Y

yaddaş - zehində saxlamaq qabiliyyəti, hafizə
yamanlıq - pis iş, pislik
yuva - quşların özlərinə çör-çöpdən düzəltdikləri yer

## Z

zədə - xarici təsir nəticəsində əmələ gələn əzik, yara
ziyan - zərər

Buraxılış məlumatı

# Azərbaycan dili 3

Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə

**DƏRSLİK**

**Tərtibçi heyət:**

**Müəlliflər:** İradə Əfəndiyeva
Məlahət Ələsgərova

**Redaktor:** Təravət Əliyeva

**Dizayner**: Samir Yüzbaşov



**© Azərbaycan Respublikası Təhsil Nazirliyinin (qrif nömrəsi: 2018-047)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 9,25. Fiziki çap vərəqi 13,0. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 104.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 12-14. Ofset kağızı. Ofset çapı.
Sifariş 41. Tiraj 840. Pulsuz. Bakı-2021

**Əlyazının yığıma verildiyi və çapa imzalandığı tarix: 19.07.2018**

Nəşriyyat:
**"XXI" Yeni Nəşrlər Evi**
**(Bakı, Mətbuat prospekti, 529 məhəllə)**

Çap məhsulunu istehsal edən:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
**(Bakı, AZ1052, F.Xoyski küç., 121a (149))**

Pulsuz

**Əziz məktəbli!**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!